www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-19 fevral 2017-ci il Şənbə № 37 (6651) Qiyməti 60 qəpik

**Xəbər**

**Prezident İlham Əliyev Münhendə mühüm görüşlər keçirdi**

yazısı səh.5-də

**Gündəm**

### Milli Məclisdə media-parlament münasibətləri müzakirə edildi



"Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunun elektron mediaya dövlət dəstəyinin verilməsi barədə təşəbbüsü dəstəkləndi

yazısı səh.3-də

### Abutalıbovun sabiq mühasibinin 505 min dollarıq işində yeni gəlişmə

yazısı səh.4-də

### "Amerikanın dostları azala bilər, ancaq qüdrəti azalmayacaq..." - Elxan Şahinoğlu

yazısı səh.9-da

### "Rusiya Azərbaycana təzyiq etmək xəttindən daşınmalıdır" - ekspert

yazısı səh.5-də

### Manat yenidən ucuzlaşmağa başlayır

yazısı səh.7-də

### Sürücülərə yeni "sürpriz" - uşaq oturacağı

yazısı səh.13-də

### Eks-NİDA üzvü dostlarına ağır cəza verən hakimin katibi oldu

yazısı səh.2-də

### Dəm qazı 16 yaşlı qızın həyatına son qoydu

yazısı səh.14-də

### Qadağan edilmiş küçə ticarəti - pintilik, yoxsa mədəniyyət...

yazısı səh.15-də

### Odessada azərbaycanlı kriminal avtoritet tutuldu

yazısı səh.14-də

### Dələduz tikinti şirkətlərinin adları açıqlandı - nəticə olacaqmı...

yazısı səh.15-də

## Azərbaycanın gücünə güc qatanlar

# YENİ MÜHARİBƏ TAKTİKASI - BAKI 2 PAYTAXTLA HƏRBİ İTTİFAQI TƏZƏLƏYİR

Prezident İlham Əliyevin xaricdə keçirdiyi və keçirəcəyi mühüm görüşlərin pərdəarxası; İsrail və Pakistanla hərbi əlaqələrə yeni stimul verilir; işğalçı Ermənistanın "Dəmir günbəz" xofu, müharibə təlaşı boşuna deyil...



yazısı səh.8-də

## Prezidentlərin oxşarları - gizli əməliyyatın təfərrüatı

Ölkə başçılarının, transmilli korporasiya rəhbərlərinin, müxalifət liderlərinin bənzərlərinin tapılıb hazırlanması barədə sensasion bilgilər

yazısı səh.12-də



**Eldar Mahmudovun DSX əməkdaşlarına qarşı əməliyyatının sensasion təfərrüatları**

yazısı səh.4-də



*Elçin Mirzəbəyli:*

**"ABŞ və Rusiya generallarının Bakı görüşü Azərbaycana dividentlər qazandıracaq"**

yazısı səh.6-da



*Səidə Qocamanlı:*

**"Dəqiq məlumatdır ki, Novruzda əfv olacaq"**

yazısı səh.7-də



## Avropa İttifaqı Dağlıq Qarabağda planlaşdırılan "referendum"un nəticələrini tanımır

**"Avropa İttifaqı Dağlıq Qarabağda keçirilməsi nəzərdə tutulan referendumun konstitusional və hüquqi quruluşunu tanımır". Bu barədə APA-ya Avropa İttifaqının mətbuat xidmətindən Dağlıq Qarabağda fevralın 20-də keçirilməsi nəzərdə tutulan "referendum"la bağlı bildirilib.**

Mətbuat xidmətindən qeyd olunub ki, ATƏT-in Minsk qrupu həmsədrləri məsələ ilə bağlı artıq bəyanat verib: "Bu referendum Dağlıq Qarabağın gələcək statusunu müəyyənləşdirə və danışıqlar prosesinə təsir edə bilməz. Avropa İttifaqı ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini dəstələyir və davamlı sülh naminə danışıqların tez bir zamanda bərpasına çağırır".




## Eks-NİDA üzvü dostlarına ağır cəza verən hakimin katibi oldu

### İctimai sektora Əli İbadov "zərbəsi" - bir həftədə ikinci fakt

**İctimai sektor üzvlərini sarsıdan daha bir xəbər dünən yayılıb. Əli Transmilli adı ilə tanınan Əli İbadov adlı gəncin 10 gündür Ağır Cinayətlərə dair İşlər üzrə məhkəmədə hakim Cavid Hüseynovun katibi işləməyə başlaması məlum olub. C.Hüseynov zamanında NİDA Vətəndaş Hərəkatı üzvlərinin məhkəməsində hakimlik edib və onların hər birinə ağır cəzalar verib.**

Bu barədə xəbəri **NİDA üzvü Ülvi Həsənli** sosial şəbəkədəki statusunda yayıb. O, aşağıdakıları yazıb: "Bir neçə ay əvvəl bizə həqiqət sırıyan adamlar indi buna cavab versinlər. İlkin hələ həbsdən çıxmayıb, bu "əsl müxalifətçi", "səmimi mübarizə aparan div", hakim köməkçisi işləyir. Dəhşət! Dindirsən ona da cavab tapacaq. Adama ağıl verənlər çox olur axı. Kənardakılar da deyəcək ki, siz fəaliyyətinizi dayandırmalısız, o sistemi içəridən çökürdəcək, işiniz mənasızdır filan. Söhbət çox uzun çəkdi, amma hər şey öz yerinə oturdu. Yadınızdadırsa, Əli söhbətini avqustda yenidən dövriyyəyə buraxan, ona haqq qazandırmaq üçün dəridən-qabıqdan çıxan ilk adam Rəşad(bir neçə gün öncə xüsusi xidmət orqanlarına işlədiyini etiraf edən eks-NİDA üzvü Rəşad Həsənovdan söhbət gedir) idi".

Müzakirələr zamanı o da üzə çıxıb ki, ictimai sektorda Ə.İbadovun xüsusi xidmət orqanları ilə əməkdaşlıq etməsi, onların sifarişlərini yerinə yetirməsi, sektora da məhz bu səbəbdən atılması barədə çoxunun məlumatı olub. Bundan başqa, onun agent olmasına inanmayanlar da azlıq təşkil etməyib. Sözügedən şəxs xanım jurnalist Xədicə İsmayılova ilə yaxınlığı ilə seçilirdi. Sonuncu ilə bağlı yayılan intim videolardakı tərəf olan Ə.İbadovla ictimai sektordakı bir çox adam əlaqələri məhz həmin videoların yayılmasından sonra dayandırmışdı. Həmin zaman onun X.İsmayıla qarşı bu işin təşkilində rolu və iştirakı olduğuna dair qənaət formalaşmışdı. Amma onda da bununla bağlı sübutlar olmadığı üçün ictimai sektorda onun da zərərçəkən olmasına bir inam var idi və əlaqələr hələ tam qırılmamışdı. Məhz həmin ərəfədə xüsusi xidmət orqanlarına işlədiyini bu günlərdə etiraf edən R.Həsənovun onu müdafiə etməsi, ona haqq qazandırması da məhz bu prosesin nəticəsi olub.

**Bütün hallarda ictimai sektorda bir "yarpaq tökümü" prosesi gedir. Ümid edək ki, bu, sonuncudur. Çünki sözügedən cinahda hər dəfə belə faktlar üzə çıxdıqca ictimai mübarizəyə olan inam da ölür.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Məcburi köçkünlər üçün elektrik enerjisi limiti müəyyən edildi

**Nazirlər Kabineti "Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin istifadə etdikləri elektrik enerjisi üzrə limitlərin müəyyən edilməsi haqqında" qərar verib.**



APA-nın məlumatına görə, qərara əsasən fərdi qaydada təbii qazla təmin olunmayan sıx müvəqqəti məskunlaşma yerlərində (keçmiş yataqxana, müalicə pansionatları və digər binalarda) faktiki yaşayan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər tərəfindən istehlak olunan elektrik enerjisi üzrə limit adambaşına ayda 300 kvt.saat müəyyən edilib.

Müəyyən olunub ki, həmin limit üzrə elektrik enerjisi haqqı Tarif (qiymət) Şurası tərəfindən əhali üzrə aylıq istehlak həcminin 300 kvt. saata qədər (300 kvt.saat daxil) olan hissəsi üçün müəyyən edilmiş pərakəndə satış tarifi ilə ödənilir. Fərdi qaydada sayğacların quraşdırılması və texniki istismarı mümkün olmayan, habelə təbii qazla təmin olunmayan sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin adlı siyahıları faktiki istehlakçıların adlı siyahıları şəxsiyyəti təsdiq edən sənəd əsasında onların məskunlaşdıqları rayon (şəhər) və əraziləri işğal olunmuş rayonların icra hakimiyyətlərinin səlahiyyətli nümayəndələri, həmin şəhər və rayonların kommunal xidmət təşkilatları (elektrik enerjisi, qaz, su təchizatı idarələri), Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rayon (şəhər) üzrə nümayəndələri tərəfindən istifadə olunan xidmətlərin növləri göstərilməklə, ərazisi işğal olunmuş hər bir rayon üzrə ayrı-ayrılıqda tərtib olunur.

Faktiki istehlakçıların müvəqqəti məskunlaşdıqları rayon (şəhər) və əraziləri işğal olunmuş rayonların icra hakimiyyətlərinin başçıları tərəfindən istehlakçıların hər il yanvarın 1-nə ümumi adlı siyahısı, artma və azalmadan asılı olaraq, hər ay dəqiqləşdirilmiş hesabat hazırlanıb təsdiq edilir, həm kağız formatında, həm də elektron daşıyıcı variantında Komitəyə, elektron daşıyıcı variantında isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir. Təqdim olunmuş siyahılar Komitə tərəfindən dürüstləşdirildikdən sonra həmin siyahılardakı saya və göstərilən xidmətlərə uyğun olaraq kommunal xidmət xərcləri üzrə tələb olunan məbləğlər hər bir xidmət növünə uyğun müəyyənləşdirilir, müvafiq maliyyə-mühasibat sənədləri hazırlanaraq ödənişin aparılması üçün hər növbəti ayın 15-dən gec olmayaraq, Maliyyə Nazirliyinə təqdim edilir. Faktiki istehlakçıların adlı siyahılarının dəqiqliyi və düzgünlüyünə görə həmin siyahıları tərtib edən məsul şəxslər və siyahıları təsdiq edən istehlakçıların məskunlaşdıqları rayon (şəhər) və əraziləri işğal olunmuş rayonların icra hakimiyyətlərinin başçıları cavabdehlik daşıyırlar.

## Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır

**Azərbaycan üzrə əhalinin sayı 2016-cı il ərzində 104,4 min nəfər və ya 1,1 faiz artaraq 2017-ci il yanvar ayının 1-i vəziyyətinə 9 milyon 810 min nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, əhalinin 53 faizi şəhər, 47 faizi kənd sakinləridir, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

2017-ci il yanvarın 1-i vəziyyətinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,9 faizi Bakı şəhərində, 20,2 faizi Aran, 12,9 faizi Gəncə-Qazax, 9,3 faizi Lənkəran, 30,1 faizi isə digər iqtisadi rayonlarda yaşayır.

Ölkə üzrə əhalinin sıxlığı bir kvadrat kilometrə 113 nəfər təşkil etmiş və bu göstərici Naxçıvan Muxtar Respublikasında 82, Bakı şəhərində 1049, Abşeron və Lənkəran iqtisadi rayonlarının hər birində 151, Gəncə-Qazax iqtisadi rayonunda isə 103 nəfər olub.

Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 46,8 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 114 oğlan düşür (bioloji norma 105-107 təşkil edir).

Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.



## Məmmədyarov Nalbəndyanla görüşdü

**Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Münhendə ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşüb. Publika.az xəbər verir ki, bu barədə Ermənistanın Xarici İşlər Nazirliyi məlumat yayıb.**

Məlumata görə, görüşdə Elmar Məmmədyarov və Edvard Nalbandyan XİN rəhbərlərinin növbəti görüşünü və həmsədrlərin regiona səfərini müzakirə ediblər.

## Azərbaycanda yeni bank yaradılacaq

**Azərbaycanda 100 faizli İran kapitalı ilə bankın yaradılması planlaşdırılır. Bunu Trend-ə Bakıda eksklüziv müsahibəsində İran Mərkəzi Bankının rəhbəri Vəliulla Seyf deyib.**

O qeyd edib: "Bankın 1993-cü ildən bəri Azərbaycanda fəaliyyət göstərən "Bank Melli İran" bankının filialının Azərbaycan bankına çevrilməsi yolu ilə nəzərdə tutulur. Bankın kapitalı tamamilə İran kapitalı hesabına yaradılacaq. Səhmdar qismində "Bank Melli İran" iştirak edəcək".

İran Mərkəzi Bankının rəhbəri bildirib ki, bu məsələ gələn həftə Azərbaycan nümayəndə heyətinin Tehrana səfəri zamanı müzakirə olunacaq.

Qeyd edək ki, daha əvvəl filialları həm Azərbaycanda, həm də İranda fəaliyyət göstərəcək birgə bankın yaradılması ilə bağlı planlar mövcud olub.



## ABŞ səfiri məcburi köçkünlə görüşdü və fotoları Facebookda yaydı

**ABŞ-ın Azərbaycandakı səfiri cənab Sekuta 17 fevral tarixində məcburi köçkün olan iş adamı Tofiq Cəbrayılovla görüşüb. Musavat.com xəbər verir ki, bu bu barədə məlumat səfirliyin Facebookdakı səhifəsində yerləşdirilib.**

Məlumatda yazılıb ki, görüş zamanı "Səfir Tofiq Cəbrayılovun həyat təcrübəsindən və 25-26 fevral 1992-ci ildə Xocalıda baş verən faciəli hadisələrdən sonra irəli getmək üçün necə yol tapması haqqında onunla söhbət edib. Cənab Cəbrayılov kiçik biznesindən gələn gəlirlə ailəsini saxlamaq üçün zəhmətlə çalışıb. "Biz keçmişdə yaşananları heç vaxt unutmamalıyıq", söyləyib və səfir Sekuta həmçinin qeyd edib ki, "Daimi yol axtararaq irəli addımlayan və ailələri üçün parlaq gələcək qurmaq üçün zəhmətlə çalışan insanlarla görüşməkdən böyük qürur hissi duyuram".

## Bakıda "Təcili yardım"ın xəstəni aparmaqdan imtina etməsi nəticəsində gənc qız ölüb

**Bakının Xəzər rayonunda "Təcili yardım" həkiminin xəstəni xəstəxanaya aparmaqdan imtina etməsi nəticəsində gənc qız ölüb.**

Bu barədə "Report"a mərhumun valideynləri məlumat verib.

Belə ki, Zirə qəsəbəsində 1993-cü il təvəllüdlü Mailova Məlhəm Heybət qızı qan təzyiqinin aşağı düşməsi səbəbindən "Təcili yardım" xidmətinə müraciət edib. M.Mailovanın çağırışına gecikən "Təcili yardım" xidmətinin həkimi ona iynə (əzələdaxili inyeksiya) vurub. Bu isə əks təsir göstərib. M.Mailovanın halının kəskin dəyişdiyini görən valideynləri həkimdən gənc qızı xəstəxanaya aparılmasını tələb edib. Ancaq "Təcili yardım" xidmətinin həkimi bundan boyun qaçırıb. Nəticədə M.Mailova ölüb.

Gənc qızın meyiti Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə təhvil verilib. Faktla bağlı Xəzər Rayon Prokurorluğunda araşdırmalara başlanılıb.

Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev "Report"a bildirib ki, "Təcili yardım" xidmətinin həkimi Həkim Məsləhət Komissiyasına çağırılıb: "Onun rəyi alınacaq. Faktla bağlı araşdırma aparılır. Həkimin günahı olduğu təqdirdə Xəzər Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanılacaq və o, işdən azad olunub məsuliyyətə cəlb ediləcək".

## Dolların fevralın 20-nə olan məzənnəsi - 1.73...

**Azərbaycan Mərkəzi Bankı (AMB) fevralın 20-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,7352 səviyyəsində müəyyən olunub.

# Milli Məclisdə media-parlament münasibətləri müzakirə edildi

## Səfa Mirzəyev: “Milli Məclisin rəhbərliyi media ilə dostluq etmək niyyətindədir”





**Fevralın 17-də Milli Məclisdə parlament, Mətbuat Şurası və media qurumlarının rəhbərlərinin birgə iştirakı ilə media-parlament əlaqələri müzakirə edildi. Görüşdə Milli Məclisin sədr müavini Bahar Muradova, Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, KİV DF-nin icraçı direktoru Vüqar Səfərov, yazılı və elektron media orqanlarının rəhbərləri iştirak edirdi.**

**“Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlunun da iştirak etdiyi görüşdə giriş nitqi ilə çıxış edən B.Muradova bildirdi ki, Azərbaycan dövləti mətbuatın rolunu yüksək qiymətləndirir:** “Bu illər ərzində mətbuatın nailiyyətləri daha çoxdur və biz bundan qurur hissi ilə danışa bilərik. Biz parlament olaraq mətbuatın işinə önəm veririk. Milli Məclisin fəaliyyəti hər kəsin gözü qarşısındadır. Lakin bəzən məlumatların doğru-düzgün çatdırılmasında müəyyən problemlər var. Bugünkü görüşün əsas məqsədlərindən biri də, mətbuatdan gözləntilərimizi nəzərə çatdırmaq, mətbuatın yardımına ehtiyacımız olan məsələləri müzakirə etməkdir”.

**Vitse-spiker dedi ki, parlament rəhbərliyi mətbuatın işinə ciddi önəm verir:** “Azərbaycan qısa müddətdə çox böyük uğurlar əldə edib və uğurlarımızın bir çoxu da mətbuat sahəsinə aiddir. Həm mətbuatın yaranması, təşəkkül tapması, inkişaf etməsi, demokratik cəmiyyət tələblərinə uyğun şəkildə formalaşması, onun qanunvericilik bazasının yaranması, qanunların aliliyinin təmin olunmasındakı iştirakı, gündəlik ictimai-siyasi durum, dünyada, regionda, beynəlxalq aləmdə gedən proseslər, Azərbaycanın hədəfləri, bununla bağlı mətbuatımız öz üzərinə düşən vəzifəni zaman-zaman müəyyənləşdirib, müəyyən vaxtda üzləşdiyi çətinlikləri dəf edib, çoxlu sayda mətbuat sahəsində tanıdılmış simalar, adlar Azərbaycan xalqına və dövlətinə bəxş edib, demokratik ənənələrin yaranmasında, qurulmasında özünəməxsus rol oynayıb”.

“Bizi ayıran heç bir məsələ yoxdur, bizi birləşdirən dəyərlər mövcuddur” deyən B.Muradova əməkdaşlıq imkanlarından danışdı. Tədbirin Xocalı soyqırımının 25 illiyinə təsadüf etdiyini deyən vitse-spiker qeyd etdi ki, Azərbaycana qarşı törədilmiş cinayətlərin beynəlxalq ictimaiyyətə çatdırılması işində mətbuat-parlament əməkdaşlığına da ciddi ehtiyac var.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** iştirakçıları salamladıqdan sonra dedi ki, parlamentin sədri Oqtay Əsədov həmişə mətbuatla normal münasibət qurmağa çalışıb.

Ə.Amaşov qeyd etdi ki, bu sayda media rəhbəri ilk dəfədir ki, parlamentə toplaşıb. MŞ sədri xatırlatdı ki, görüşdə əsas məqsəd ölkə mediasının parlamentin işində, qanunvericilik bazasının hazırlanmasında daha yaxından iştirak etməsidir.

“Bizim xalqımızın inkişafında, milli təfəkkürünün inkişafında, milli mənliyinin meydana gəlməsində Azərbaycan mətbuatı kifayət qədər rol oynayıb, bu, "Əkinçi"dən başlayıb" - deyən Ə.Amaşov Azərbaycan Xalq Cümhuriyyətinin bir çox qurucularının da mətbuatımızın layiqli təmsilçiləri olduğunu xatırlatdı.

“Bu gün Azərbaycanda 40-a yaxın gündəlik, 250-yə yaxın həftəlik qəzet fəaliyyət göstərir, bir o qədər də elektron media portalı mövcuddur” - deyən MŞ sədri Azərbaycan mətbuatının vətənpərvər mətbuat olduğunu vurğuladı.



demokratik təsisatlarından biridir. Qəzetimizin bütün fəaliyyəti dövründə burada bizim akkreditə olunmuş müxbirimiz olub. Hər kəs açıq olub, hər kəs danışıb, bu istiqamətdə fəaliyyətimiz davam edir, jurnalistlərə münasibətdən razıyıq. Bircə mobil telefonların alınmasından rəncidəyik, bu, məlumatların yayımlanması zamanı operativliyə mane olur”.

**Baş redaktor yazılı mətbuatın üzərindən ƏDV-nin götürülməsini təklif etdi:** “Biz çox istərdik ki, bu, baş versin. Bu, o deməkdir ki, hər bir ton qəzet kağızı üçün 105 dollar ucuzlaşma olacaq. Bu da indiki məqamda qəzetlər üçün ciddi məbləğdir”.



**“Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev** dedi ki, mətbuatı tənqid edərkən, parlamentin bəzi nümayəndələrini də tənqid etmək lazımdır: “Bəzi deputatlar, komitə sədrləri əsas verməsə, jurnalistlər onları tənqid etməz. Xahiş edirəm, bəzi parlament üzvlərinə çatdırın ki, bizim jurnalistlərdən qorxmasınlar, lazım olanda açıqlama versinlər”.

**“Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz** isə dedi ki, toxunulmazlıqdan istifadə edən bəzi deputatlar tarixi şəxsiyyətlərə qarşı həqarətlərə yol verir: “Mən bilmək istəyirəm, Milli Məclis onlar haqqında ölçü götürmək fikrindədir, ya yox?”

**“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu** çıxışında parlamentdə jurnalistlər üçün yaradılan şəraitdən razılığını bildirdi: “Bura Azərbaycanın ən

**R.Arifoğlu elektron mediaya dəstək verilməsi zərurətindən də bəhs etdi:** “Azərbaycan prezidenti çap mediasına çox ciddi dəstək göstərir. Çap mediası KİVDF-nin dəstəyi sayəsində mövcuddur. KİVDF olmasa, burada oturan redaktorların ən azı yarısı bu tədbirdə iştirak etməyəcəkdi. Çünki Azərbaycanın çap mediası bazarının imkanları o dərəcədə deyil ki, bu qədər gərgin və müsabiqəsi yüksək olan bazarda rəqabət aparsın. Məhz o Fondun dəstəyi sayəsində biz bu gün ayaqdayıq. Ürəyimiz və könlümüz istər ki, bu cür dəstək eyni zamanda elektron mediaya da verilsin. Bu, çox önəmlidir. Çünki elektron media Azərbaycanın sərhədlərindən anındaca çıxmaq deməkdir. İngilis, rus, ərəb və s. başqa dillərdə Azərbaycan həqiqətlərini dünyaya vaxtında çatdıra bilərik. Çünki o həqiqətlər bizim üçün həyati məsələdir, Vətən müharibəsi modelində müharibə modelidir. Yəni Azərbaycan auditoriyasının, daxili auditoriyanın kənar informasiya axınından qorunması üçün işlər görülür, lakin Azərbaycandan kənara xitab edən yayım orqanlarına mütləq dəstək lazımdır. Məsələn, biz öz gücümüzə rus dilində iki sayt yaratmışıq. Bunun miqyasını böyütmək istərdik. Ermənilərlə informasiya müharibəsində - xüsusulə də, onların rusca auditoriyası çox böyükdür, bunu nəzərə alın - bizim güclü olmağımız üçün mütləq və mütləq dövlət dəstək verməlidir”. **Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli** Azərbaycanın milli maraqlarının yayılması ilə bağlı təkliflərini çatdırdı.

**“Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlunun elektron mediaya dövlət dəstəyinin verilməsi barədə təşəbbüsü dəstəkləndi; Vüqar Səfərli: “Elektron medianın maliyyələşməsi məsələsi gündəmdədir, yəqin bu məsələ öz həllini tapacaq”**

**“Gündəlik Teleqraf” Media Holdinqinin rəhbəri Aynur Camalqızı** da çıxışında parlament rəhbərliyindən elektron mediaya dəstək verilməsini istədi.

**BAMF sədri Umud Rəhimoğlu** görüşün önəmindən bəhs etdi. O da internet mediaya dəstəyin artırılması ilə bağlı səslənən fikirləri dəstəklədi. Bildirdi ki, rəhbərlik etdiyi media orqanı beş dildə yayılır və kifayət qədər geniş auditoriya qazanıb: “Azərbaycan reallığından baxanda bu, bizim öz imkanlarımızla əldə etdiyimiz çox böyük nəticədir”.

**“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** dedi ki, ciddi elektron medianın maliyyələşməsi ilə bağlı təklifləri dəstəkləyir.

**“Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı** 90-cı illərdə parlament müxbiri olduğunu, burada Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Yusif Səmədoğlu kimi şəxsiyyətləri gördüyünü dedi. Baş redaktor qaçqınları, Azərbaycanın tarixi simvollarını təhqir edən deputatları cəzalandırmağa çağırdı.

**“Bizim yol” qəzetinin baş redaktoru Bahəddin Həziyev** də elektron mediaya dəstək verilməsi barədə R.Arifoğlunun təşəbbüsünü müdafiə etdi: “Milli Məclis üzvləri bəzən ağzına gələni danışır. Deputatlar danışanda bir az məsuliyyətli olsunlar”.

**“Trend” Agentliyinin direktor müavini Arzu Nağıyev, “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirəzbəyli, PJB-nin sədr müavini Aqil Aslan və digər media mənsubları çıxış etdilər.**

**KİVDF-nin icraçı direktoru Vüqar Səfərli** isə çıxışında “əvvəllər məmurlar jurnalistlərdən qaçırdı, jurnalistlər aylarla məmurların qəbuluna düşə bilmirdilər. Artıq bu mif ortadan götürülüb” deyə, bildirdi.

V.Səfərli qeyd etdi ki, belə görüşlərin keçirilməsi həm mediaya, həm də Milli Məclisə faydalıdır. “Elektron mediaya təsdək göstərilməsi nəzərdə tutulub, hətta prezidentin yanında da bu məsələ qaldırılıb” - deyə, Vüqar Səfərli vurğuladı. Qurumun rəhbəri xatırlatdı ki, son dövrlər maliyyə böhranı yaşanır, bir çox təşkilatların büdcələri azaldılıb: “Lakin KİVDF-yə ayrılan vəsait nə keçən il, nə bu il azaldılmayıb. Hətta keçən il gündəlik qəzetlərə əlavə 1 milyon manat vəsait ayrılıb. Bu gün də elektron medianın maliyyələşməsi məsələsi gündəmdədir, yəqin bu məsələ öz həllini tapacaq”.

**Ancaq V.Səfərli istisnaların olacağını da deyib və xəbərdarlıq etdi:** “Bu, o demək deyil ki, biz yardım siyahısı tutub bütün elektron mediaya yardım edəcəyik. Bəzi saytlar bir-birindən köçürmədir, bunlara ehtiyac varmı? İlk öncə xarici dillərlərdə yayılan, Azərbaycanın səsini xaricə çatdıran elektron media orqanları maliyyələşdiriləcək və dövlət tərəfindən dəstək olunacaq”.

**Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev** mətbuatın rolundan bəhs etdi, çıxışlara da reaksiya verdi və bəzi deputatların davranışları haqda deyilənlərə münasibətini açıqladı: “Deputat heç kimi təhqir edə, yalan danışa və böhtan ata bilməz. Parlamentdə İntizam Komissiyası var. Belə olan hallarda deputata qarşı daxili intizam tədbirləri görülə bilər. Lakin cəmiyyətdə olan, müzakirə edilən hansısa məsələ barədə deputat fərqli fikir deyirsə və bununla razı deyilsənsə, dostcasına ona yaxınlaşıb fikir bildirmək olar”.

**S.Mirzəyev əlavə etdi ki, Milli Məclisdə baş verənlər qurumun saytında dərc olunur:** “Ona görə də KİV-dən xahişimiz ondan ibarətdir ki, hansısa məsələ barədə fikir bildirəndə bizim ekspertlərlə məsləhətləşəsiniz. Çünki hərdən müzakirə olunan qanun layihəsi barədə elə söhbətlər gedir ki, bunun həmin layihə ilə heç bir əlaqəsi olmur. Milli Məclisin rəhbərliyi, Aparatı media ilə dostluq etmək niyyətindədir. Qəzetdə, saytda, televiziyada deyilən fikirlərdən incimək lazım deyil. Hərdən insanların hissiyatına toxunan xəbərlər olanda bunu araşdırmaq lazımdır”.

## Bahar Muradova: “Ayrı-ayrı media orqanlarında söyüş kampaniyaları aparılır”

**Vitse-spiker səslənən fikirlərlə bağlı dedi ki, deputatların fəaliyyəti ilə bağlı yeni mexanizmlərin düşünülməsinə ehtiyac yoxdur.** “Bu məsələdə ən ağır mexanizm cəmiyyətin qınağıdır” deyən B.Muradova ayrı-ayrı media orqanlarında söyüş kampaniyalarının aparıldığını bildirdi: “Bu da ayrı-ayrı mətbuat nümayəndələrini adekvat olmayan hərəkətlərə vadar edir. Bunun bir tərəfi peşə eqoizmi ilə bağlıdırsa, məlumatda önə çıxmaq, eksklüziv məlumat yaymaq həvəsi ilə bağlıdırsa, yarısı da mənəviyyata bağlı olmalıdır. Bunu heç kim inkar edə bilməz”.

**B.Muradova bir müddət öncə özünün də çıxışının təhrif olunaraq yayıldığını söylədi və “Yeni Müsavat”ı nümunə gətirdi:** “Çox təəssüf ki, bu məsələ ilə bağlı yalnız ”Yeni Müsavat" qəzeti mənə müraciət etdi və mən həm mövqeyimi bildirdim, həm də bununla bağlı videomaterialı təqdim etdim".

Sonda **MŞ sədri Əflatun Amaşov** ağsaqqal jurnalist Şirməmməd Hüseynovun Demokratik Cümhuriyyətin parlamentinin fəaliyyətindən bəhs edən iki cildlik kitabını parlament kitabxanasına hədiyyə etdi. Tədbir yekununda xatirə fotosu çəkildi.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017

# Eldar Mahmudovun DSX əməkdaşlarına qarşı əməliyyatının sensasion təfərrüatları

## Banklardan çıxarılan milyardlarla pulun izi offşorlarda itir; sabiq nazirin çetesinin ilginc nağdlaşdırma əməliyyatları araşdırılır

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi rəhbərliyinin illərlə törətdiyi cinayətlər sırasında "qara pul" əməliyyatları ön sırada olub. Eldar Mahmudovun çetesi belə əməliyyatları keçirmək üçün Azərbaycanın bir çox banklarını şəxsi nəzarət altına alıblar. Əslində burada qeyri-adi heç nə yoxdur.**

Banklardakı əməliyyatlara nəzarət edib ölkəmiz üzərindən "qara pullar"ın dövr etməsinə qarşı tədbirlər görmək səlahiyyəti MTN-də olub. Gələn məlumatlar onu deməyə əsas verir ki, sabiq nazir Eldar Mahmudov və çetesi daha çox qazanmaq, daha çox pul ələ keçirmək üçün atdığı addımlar "qara pul" əməliyyatlarını gerçəkləşdirən mafioz qrupları kölgədə qoyub.

MTN çetesi üzvlərinin iştahası öz işinə vicdanla yanaşan bank işçilərinin, müxtəlif peşə sahiblərinin həyatı, karyerası üzərindən 1 dəqiqənin içində xətt çəkməyə belə yetib. Həbsə alınan, təqib edilənlər də olub. Eldar Mahmudovun qanunsuz yollarla ölkədə qazandıqlarını xarici ölkələrə, xüsusilə, offşor zonalara çıxarması sirr deyil. Bir müddət bundan əvvəl gununsesi.info Eldar Mahmudovun həbs edilməməsinin səbəbi kimi xaricə çıxardığı 5 milyarda yaxın vəsaitin geri qaytarılması ilə bağlı prosesin getməsi göstərilmişdi. Eldar Mahmudovun "Texnikabank"ı ələ keçirməsindən sonra təkcə bu bank vasitəsi ilə xaricə 2 milyard pul çıxarması barədə məlumat da üzə çıxmışdı.

Sayt yazmışdı ki, Eldar Mahmudovun nazir vəzifəsini itirənədək son 6 ildə "Muğanbank" vasitəsilə müxtəlif tarixlərdə xaricə 500 milyon dollar vəsait çıxarıb. Bu pullar sabiq nazirin oğlu Anar Mahmudovun holdinqinə daxil olan şirkətlər və onlara yaxın digər şəxslərin adı ilə köçürülüb. Hazırda "Muğanbank"ın Müşahidə Şurasının sədri Elmir Mehdiyev bu köçürülmə faktı ilə bağlı istintaqa şahid qismində cəlb olunub.

2015-ci ilin noyabrında təqaüddə olan xüsusi xidmət polkovniki Tofiq Rəcəbov "Azərbaycana inqilab üçün 18 milyard gətirilmişdi" iddiasını səsləndirmişdi. T.Rəcəbov E.Mahmudovu "qara pul" əməliyyatlarını gerçəkləşdirməkdə ittiham etmişdi. T.Rəcəbov "Yeni Müsavat"a müsahibəsində demişdi ki, vaxtilə Xüsusi İdarədə işləyib. Təqaüdə göndəriləndən sonra isə bizneslə məşğul olub. Həmin müsahibədən sitat: "Bu yaxınlarda mən biznesimlə əlaqədar İsveçrədə idim. Orada bir neçə adamla görüşdüm. Onlar təklif etdilər ki, bəzi məsələləri prezidentə çatdırmaq lazımdır, ölkəyə təhlükə var. Yəni bəzi nazirlər qrup halında birləşiblər.


Eldar Mahmudov

Xarici ölkələrin, xüsusən Avropanın və böyük dövlətlərin siyasi rəhbərliklərinə çıxış axtarırlar. Özlərinə dayaq axtarırlar ki, gələcəkdə hakimiyyətə yiyələnsinlər, öz əmlaklarını qorusunlar. Bakıya qayıdan kimi dərhal yazıb çox yüksək səviyyəli bir vəzifəliyə verdim. O da aparıb bunu verib Eldar Mahmudova. O da mənə çatdırdı ki, istəyirsən bu həyatda yaşayasan, bir də dilinə belə şey gətirmə".

**T.Rəcəbov bundan sonra durumu anladığını, sabiqin nazirin "qara pul" əməliyyatlarına bulaşdığını anladığını da gizlətməmişdi.**

Ümumilikdə isə E.Mahmudov və onun çetesi nəzarət altına aldığı banklarda nağdlaşdırılan pulları ölkədən çıxarmaq üçün ən müxtəlif yollardan istifadə edib. Belə yollardan biri də Bakı Hava Limanı üzərindən olub. "Qara pul" əməliyyatlarının gerçəkləşdirilməsi əsasən, MTN-in Transmilli Cinayətkarlıqla Mübarizə İdarəsinin sabiq rəis müavini, hazırda məhkəmə qarşısında olan Füzuli Əliyevə tapşırılıb. MTN-in hava limanı şöbəsinin rəisi Pərviz Vəliyev də belə daşımalarda vasitəçilərdən olub. E.Mahmudov vəzifədə olduğu dövrdə onun qanunsuz hərəkətlərinə Dövlət Sərhəd Xidmətinin(DSX) əməkdaşları maneçilik törədiblər. Sərhədçilər MTN rəhbərliyinin qanunsuz malların qeyri-qanuni şəkildə ixracını həyata keçirməyə dair əsassız tələblərinə əməl etməkdən imtina ediblər. Sərhədçilər E. Mahmudovun dəstəsinin qaçaqmalçılığına mane olurmuş.

Bu isə Eldar Mahmudovu ciddi şəkildə qəzəbləndirib. O, vəzifədən çıxarılmazdan bir neçə ay əvvəl - 2015-ci ilin aprelində Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşlarını ləkələyən, gözdən salan bir əməliyyatın planlaşdırılmasını və həyata keçirilməsini tapşırıb. Az sonra tapşırıq yerinə yetirilib. MTN-in əməliyyatçıları rəhbərliyinin əmri ilə DSX-nin hava limanındakı Baş İdarəsinin rəisi, polkovnik Gündüz Bağırov, onun müavinləri Eldar Həsənov, Niyazi Cəfərov və Rəhman Ələkbərova qarşı qısa müddətdə saxta ittihamla cinayət işi başlanmasına əsas verən "fakt"lar toplayıblar. G.Bağırov və müavinləri işdə çoxsaylı qanun pozuntularına yol verməkdə ittiham olunublar.

Həmin vaxt MTN əməkdaşlarının gördüyü tədbirlər nəticəsində DSX rəhbərliyi fakt qarşısında qoyulub. Bundan sonra Eldar Mahmudovun tələbi ilə Gündüz Bağırov, onun müavinləri Eldar Həsənov, Niyazi Cəfərov və Rəhman Ələkbərov tutduqları vəzifələrdən azad olunublar. Məsələ böyüyüb və xüsusi araşdırmalar başlanıb. Bəxt DSX əməkdaşlarının üzünə E.Mahmudovun qəfil işdən çıxarılmasından sonra gülüb. Polkovnik Gündüz Bağırovun və onun müavinlərinin bu məsələdə tamamilə günahsız olduğu sübuta yetirilib. Sərhədçilərin fəaliyyətində heç bir qanun pozuntusu halı aşkarlanmayıb, şübhəli şəxs qismində istintaqa cəlb edilən DSX əməkdaşlarına bəraət verilib.

❑ E.MƏMMƏDƏLİYEV

# Abutalıbovun sabiq mühasibinin 505 min dollarıq işində yeni gəlişmə

## Tamara Həmidova ilə Bakı merini daha nə birləşdirir?

**Bakı Şəhər İcra Hakimiyyətinin sabiq mühasibi Tamara Həmidovaya qarşı dələduzluğun yeni təfərrüatları haqda məlumatlar əldə etmişik. Ötən saylarımızdan birində xəbər vermişdik ki, T.Həmidovanın 505 min dolları ələ keçirilib. Məsələ belə olub ki, 2013-cü ildə Gündüz Bağırov və Çingiz Təndirov ortaq tanışları vasitəsi ilə T.Həmidova tanış olublar. Onlar qadını inandırıblar ki, Birləşmiş Ərəb Əmirliklərində böyük bizneslə məşğuldurlar.**

Əllərindəki milyonlarla pulu biznesə yatırıblar, dövriyyəni böyütmək üçün onlara əlavə vəsait lazımdır. Sabiq baş mühasibdən biznesə yatırmaq üçün pul istəyiblər. Bu yolla T.Həmidovadan 2013-2014-cü illər ərzində ümumilikdə 505 min dollar pul alıblar və ona hər ay faiz verəcəklərini vəd ediblər. İlkin dövrlərdə sabiq baş mühasibə faizlər verilsə də, sonradan proses dayandırılıb. T.Həmidova bir neçə müraciətdən sonra ona pulu verməkdən imtina ediblər. Deyiblər ki, hara istəsə şikayət edə bilər. T.Həmidova deyildiyi kimi də edib. Bir çox ünvanlara şikayət ünvanlasa da, aylarla davam edən araşdırmalardan sonra ona məhkəməyə müraciət etməyi məsləhət biliblər.



Aldığımız məlumatda bildirilir ki, T.Həmidova faizləri deyil, əsas məbləği almaq üçün bu gün də çalışır, davamlı olaraq Prezident Administrasiyasına, hüquq mühafizə orqanlarına şikayətlər edir. O, faizlə borc verdiyi 505 min dolları illərlə topladığını gizlətmir. Pulların mənbəyi haqda bilinən isə budur ki, keçmiş mühasibin vaxtilə Bakı Şəhər İcra Hakimiyyətində işləyərkən Hacıbala Abutalıbovla yaxşı münasibətləri olub. Həmin vaxt T.Həmidova Bakının müxtəlif ərazilərindən çoxlu torpaqlar əldə etməyə nail olub. Onun Bakının əksər rayonlarında - Sabunçu, Səbayel, Xəzər, Yasamal, Nizami rayonu ərazisində çoxsaylı torpaq sahələrinə sahib olduğu bilinir. Həmin torpaq sahələrinin əksəriyyəti ilə bağlı T.Həmidovanın məhkəmə çəkişmələri olub. Çox vaxt torpaqların başqa şəxslərə məxsus olması üzə çıxıb, T.Həmidova məhkəmələrə çəkilib. Belə məhkəmə çəkişmələri uzun müddət Səbayel, Sabunçu, Xəzər Rayon Məhkəmələrində araşdırılıb. İddialara görə, T.Həmidovanın sabiq milli təhlükəsizlik nazirinin yaxın çevrəsinə daxil olan şəxslə əlaqəsi hesabına əksər məhkəmə çəkişmələrindən qalib çıxıb. Bu əlaqə üzərindən onun torpaqlarla bağlı məhkəmə çəkişmələri yoluna qoyulub. Bu məsələnin getdikcə böyüməsi mühasiblə Abutalıbov arasında münaqişənin yaranmasına gətirib çıxarıb. Mer mühasibini zəiflətmək istəsə də, ona bata bilməyib. İddia edilir ki, torpaq söhbətinə görə aralarında böyük davalar olub. Nizami rayonu, Çobanzadə küçəsində T.Həmidovanın satdığı bir torpaq sahəsində ət dükanı tikilib. Torpağı alan şəxsə vəd olunub ki, torpağın sənədləri ona veriləcək. Amma verilməyib. Torpaq sahibi biləndə ki, onun mağazasının altından magistral xətt keçir, artıq gec olub. Hətta həmin xətdə baş verən qəza nəticəsində mağaza vaxtilə sökülüb. Mağaza sahibi böyük ziyana düşüb. Sonradan öz hesabına mağazanı yenidən bərpa etdirib.

Baş verənlər T.Həmidovanın torpaq biznesini davam etdirməsinə mane olmayıb. Abutalıbovun sabiq mühasibi torpaq biznesdən böyük gəlirlər əldə edib. 2013-cü ildə isə Gündüz Bağırov və Çingiz Təndirovla tanışlığı onun illərlə torpaq biznesindən əldə etdiyi pulların itirilməsinə səbəb olub. Pulların geri qaytarılacağına ümidlər də aradan qalxır...

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017



# İlham Əliyev Münhendə mühüm görüşlər keçirdi

## Prezident: "Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirmək niyyətindəyik"

**Fevralın 17-də Almaniyada sayca 53-cü Münhen Təhlükəsizlik Konfransı başlayıb. Fevralın 19-na qədər davam edəcək toplantıya dünyanın müxtəlif ölkələrindən 500-ə yaxın rəsmi, yüksək vəzifəli şəxslər qatılıb.**

Konfransda Donald Trampın ABŞ prezidenti seçilməsindən sonra transatlantik əlaqələr və NATO-nun gələcəyi, təhlükəsizlik və müdafiə sahəsində Avropa əməkdaşlığı, Rusiya ilə əlaqələr, Suriya müharibəsi, Asiya-Sakit okean regionunda təhlükəsizliklə bağlı vəziyyət və informasiya müharibəsi məsələlərinin müzakirəsi aparılır (APA).

Münhendə təşkil olunan tədbirə qatılan Azərbaycan prezidenti İlham Əliyevin Xorvatiya prezidenti xanım Kolinda Qrabar-Kitaroviçlə görüşü olub.

Bu barədə Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumata görə, Kolinda Qrabar-Kitaroviç Azərbaycana rəsmi səfərini məmnunluq hissi ilə xatırlayıb, keçirilən görüşlərdə səmərəli fikir mübadiləsinin aparıldığını vurğulayıb.

Səfər çərçivəsində keçirilən Azərbaycan-Xorvatiya biznes forumunun ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işinə xidmət etdiyini deyən Xorvatiya prezidenti hökumətlərarası komissiyanın iqtisadi əməkdaşlığımızı daha da genişləndirəcəyini diqqətə çatdırıb. Xorvatiyanın enerji sahəsi ilə yanaşı, qeyri-neft sektoru, o cümlədən informasiya texnologiyaları, gəmiqayırma, kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə də Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu deyən Kolinda Qrabar-Kitaroviç ölkəsinin həyata keçirdiyi enerji layihələrində Azərbaycan ilə əməkdaşlığa maraq göstərdiyini vurğulayıb.

Kitaroviç prezident İlham Əliyevin Avropa İttifaqına səfərinin uğurlu keçdiyini bildirib, Azərbaycanın Avropa İttifaqı ilə yeni sənəd üzərində işlədiyini deyib, bu prosesin Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişafına xidmət edəcəyini bildirib. Xorvatiya prezidenti İ. Əliyevi ölkəsinə səfərə dəvət edib.

Prezident İlham Əliyev Azərbaycan-Xorvatiya əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm roluna toxunan dövlət başçısı ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu layihələrdə Xorvatiyanın da iştirak edə biləcəyini diqqətə çatdırıb.

Avropa İttifaqı ilə əlaqələrdən danışan İlham Əliyev bildirib ki, Azərbaycan Avropa Komissiyası ilə fəal əməkdaşlıq edir. Azərbaycan prezidenti ikitərəfli əlaqələrimizin həm də Avropa İttifaqı-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Dövlət başçısı Azərbaycanın Avropa İttifaqı ilə siyasi dialoq, təhlükəsizlik, texnologiyalar, enerji, multikulturalizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi niyyətində olduğunu deyib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunulub. Xorvatiya prezidenti Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bir daha diqqətə çatdırıb...

Prezident İ.Əliyev fevralın 17-də Münhendə İsrailin müdafiə naziri Aviqdor Libermanla da görüşüb.

Musavat.com-un xəbərinə görə, görüşdə Azərbaycan-İsrail əlaqələrinin müxtəlif aspektləri müzakirə edilib.

A.Libermanın xarici işlər naziri kimi Azərbaycana səfəri xatırlanıb, İsrailin baş naziri Benyamin Netanyahunun ötən il Azərbaycana etdiyi uğurlu səfərindən danışılıb.

Azərbaycanla İsrail arasında hərbi-texniki sahədə əməkdaşlığın məmnunluq doğurduğu vurğulanıb, bu sahədə gələcək





əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Azərbaycan prezidentinin həmçinin, Kiyev şəhərinin meri, Ukrayna İslahatlar naminə Demokratik Alyansının sədri Vitali Kliçko ilə görüşü olub.

Ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini, qarşılıqlı biznes maraqlarının olduğunu deyən V. Kliçko SOCAR-ın Ukraynada uğurlu fəaliyyətini vurğulayıb, şirkətin və Azərbaycan diasporunun nümayəndələrinin Ukraynanın inkişafına mühüm töhfə verdiyini bildirib. Mer Kiyevdə Heydər Əliyevin adını daşıyan parkın şəhərin ən gözəl məkanlarından birinə çevrildiyini deyib.

Prezident İlham Əliyev Azərbaycan diasporunun Ukraynanın inkişafına töhfə verdiyini bildirib, ölkələrimiz arasındakı dostluq münasibətlərinin möhkəmləndiyini, Ukraynanın Azərbaycanın etibarlı tərəfdaşı olduğunu qeyd edib.

İlham Əliyevin və Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qaninin də görüşü olub. Görüşdə Azərbaycanla Əfqanıstan arasında əlaqələrin uğurla inkişaf edərək müxtəlif sahələri əhatə etdiyi, ikitərəfli münasibətlərimizin daha da genişlənməsi üçün imkanların olduğu bildirilib.

Pambıqçılıq, sement istehsalı, səhiyyə, nəqliyyat sahələrində əlaqələrin inkişafı baxımından yaxşı potensialın olduğu vurğulanıb. Azərbaycanın brendi olan "ASAN xidmət"in təcrübəsinin Əfqanıstanda yayılması məsələləri müzakirə edilib.

Söhbət zamanı ölkələr arasında ticarət əlaqələrinin, ixrac-idxal əməliyyatlarının genişləndirilməsi ilə bağlı müəyyən addımların atılması barədə razılığa gəlinib.

İlham Əliyev "MAN SE" şirkətinin baş icraçı direktoru Yoaxim Dris ilə də görüşüb. Görüşdə Y. Dris Azərbaycanın sürətlə inkişaf etdiyini, ölkəmizdə irimiqyaslı layihələrin həyata keçirildiyini, nəqliyyat dəhlizləri ilə bağlı gedən proseslərdən məmnun qaldıqlarını, respublikamızda fəaliyyət göstərməkdə maraqlı olduqlarını bildirib.

İlham Əliyev son illərdə Azərbaycanda müxtəlif sahələrdə yenilənmə işlərinin aparıldığını, ictimai nəqliyyatın müasirləşdirilməsi istiqamətində mühüm tədbirlərin görüldüyünü vurğulayıb. Dövlət başçısı əməkdaşlıq imkanlarının araşdırılması üçün "MAN SE" şirkətinin nümayəndələrini Azərbaycana səfərə dəvət edib.

Azərbaycan prezidenti konfrans çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru? OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda dəyirmi masada da geniş çıxış edib.

Azərbaycan prezidenti Münxendə həmçinin, "Kaspersky Lab" şirkətinin sahibi və baş icraçı direktoru Yevgeni Kasperski ilə görüşüb.

Görüşdə "Kaspersky Lab" şirkətinin Azərbaycan ilə müəyyən sahələrdə uğurla əməkdaşlığından danışılıb. Azərbaycanla əlaqələrin daha da genişləndirilməsinin vacibliyinin vurğulandığı söhbət zamanı xüsusilə sənaye və digər sahələrdəki proseslərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində işlərin görülməsi ətrafında fikir mübadiləsi aparılıb.

***

Ekspertlər Azərbaycan prezidentinin Münhendə keçirdiyi görüşləri həm siyasi, həm də iqtisadi baxımdan uğurlu hesab edirlər. Belə ki, bu görüşlər zamanı həm Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeyinin gücləndirilməsinə nail olunur, həm təhlükəsizlik məsələlərində əməkdaşlıqla bağlı yeni çalarlar müəyyən edilir. Dünyada və regionda mürəkkəb bir vəziyyət yarandığı vaxtda Azərbaycanın maraqlarının qabardılması, eləcə də əməkdaşlıq məsələləri prioritet təşkil edən məsələlərdəndir. Bu baxımdan keçirilən görüşlərdə və təşkil olunan müzakirələrdə bu məsələlər xüsusi vurğulanır.

Həmçinin, erməni lobbisinin və ermənipərəst qüvvələrin Avropa Azərbaycana qarşı kampaniyalarını intensivləşdirdiyi bir vaxtda prezident İlham Əliyevin dünyanın əsas güc sahiblərinin mühüm fiqurları ilə görüşləri və əldə edilən nəticələr düşmənlərimizə tutarlı cavabdır.

**Bundan başqa, ölkə başçısının nüfuzlu şirkət rəhbərləri ilə görüşdə əməkdaşlıq barədə müzakirələr və razılaşmalar iqtisadi baxımdan Azərbaycan üçün olduqca əhəmiyyətlidir.**

❑ **Hazırladı: M.MAHRIZLI**

# "Rusiya Azərbaycana təzyiq etmək xəttindən daşınmalıdır"

## Moskvanın Lapşinə görə qərəzli münasibəti haradan qaynaqlanır?

**Azərbaycanın Konstitusiyasını pozduğu, sərhədlərimizi qanunsuz keçdiyi və Azərbaycan ərazisi olan Dağlıq Qarabağı "müstəqil dövlət" kimi təbliğ etdiyi üçün cinayət məsuliyyətinə cəlb olunan Rusiya, İsrail və Ukrayna vətəndaşı Aleksandr Lapşinin Belarusda həbs edildikdən sonra Azərbaycana ekstradisiya olunmasını Rusiya sanki həzm edə bilmir.**

Az qala hər gün ya Kremldən, ya Rusiya XİN-dən Lapşin məsələsi ilə bağlı bir açıqlama verilir. Hər açıqlamada da Azərbaycan qanunlarını pozduğu üçün cinayət işi açılan Lapşinin Bakıya verilməsindən, Bakının bu məsələdə dirəniş göstərməsindən narazı qaldıqlarını büruzə verdirirlər.

Bəzi ekspertlər hesab edir ki, Moskva Belarusu və Azərbaycanı Lapşin məsələsində görə, hansısa şəkildə cəzalandırmağa çalışa bilər. İddialara görə, məhz Aleksandr Lapşinin Bakıya ekstradisiyasından az sonra-fevralın 13-də 200 nəfərə yaxın azərbaycanlının Dərbənddə saxlanması, Şahin Mirzəyev adlı Azərbaycan vətəndaşının Ermənistana keçməsi xüsusi təşkil edilmiş addımlardır və istisna deyil ki, bu addımlar Rusiyanın Lapşin məsələsinə görə atdığı cavab addımlarıdır.

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev**in "Yeni Müsavat"a dediyinə görə, miqrasiya qanunlarını pozmaq adı ilə Dərbənddə saxlanılmış təxminən 200 Azərbaycan vətəndaşı sonradan buraxılsa da bu hadisənin niyə indiki ərəfədə baş verməsi böyük suallar yaradır: "Heç kimə də sirr deyil ki, Rusiyada qeyri-leqal işçi miqrantlarımızın sayı kifayət qədərdir. O başqa məsələdir ki, kimin təqsiri üzündən onlar qeydiyyata düşmürlər və ya hansı marağa görə kimlər onların qeydiyyata düşməsini istəmirlər. Buna baxmayaraq son illərdə bütövlükdə Rusiya ərazisində bizim işçi miqrantlara qarşı belə əməliyyatlar olmamışdı. Amma 2000-2013-cü illər ərzində xüsusilə Moskvada bir neçə dəfə buna oxşar hadisələr olmuşdu. Hətta rəhbərlik səviyyəsində miqrantlarımızın bütövlükdə deportasiya ediləcəyi barədə təhdidlər də eşitmişdik. Bu hadisələrin baş vermə zamanında Azərbaycan-Rusiya münasibətlərində soyuqluq olması xüsusi diqqət çəkən məqamlardan idi. Dediyim suallar da buradan qaynaqlanır. Mən inanmaq istəməzdim ki, Lapşin məsələsinə görə bu səviyyəyə ensinlər. Amma faktlar başqa şey deyir. Şahin Mirzəyev məsələsi də sıradan sadə bir məsələ deyil. Bu insan nə qədər yaramaz, ləyaqətsiz, şərəfsiz olsa da Azərbaycan pasportu və adı ilə Ermənistana keçməyə cəsarət etməzdi. Onu öncədən bu addımı atmağa təhrik edən, gedəcəyi halda təhlükəsizliyinə tam təminat verən, maddi mükafat vəd edənlər olub. Birmənalı bunlar xarici xüsusi xidmət orqanlarını təmsil ediblər. Deməli, Şahin Mizəyev xüsusi xidmət orqanlarının öncədən yaratdığı istifadə etdiyi material olub. Amma bu yüz faiz Ermənistan xüsusi xidmət orqanları deyil. O zaman hansı ölkənin orqanıdır? Hansı ölkənin olması ilə bağlı şübhələr və növbəti böyük sual da burada yaranır. Lapşin məsələsinə görə Azərbaycana cavab addımları olmasını söyləmək mümkündür".

**Ekspert hesab edir ki, məsələlər təkcə Lapşin məsələsindən qaynaqlanmır. Başqa məqamlar da var:** "Bu ilin aprel döyüşlərindən sonra Azərbaycan-Rusiya arasındakı diplomatik gərginliklər zaman-zaman özünü büruzə verirdi. Məlumdur ki, belə hallarda digər istiqamətlərdə də paralel işlər aparılır. Əgər bu addımlar hansısa siyasi məqsədlərə hesablanmış təzyiq vasitəsidirsə çox yanlış, nəticəsi bunu təşkil edənlərin özünə qarşı olacaq addımdır. Onsuz da Azərbaycan əhalisinin Rusiyaya münasibətlərində neqativ çalarlar gün-gündən artmaqdadır. Rusiya bunun aradan qaldırılmasına xidmət edən addımlar atmaq haqqında fikirləşməlidir, Azərbaycana təzyiq etmək xəttindən daşınmalıdır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017




# Generalların Bakı görüşündə ABŞ-ın əsas hədəfi - yeni gəlişmə

## Ekspert: "Trampın prezidenti olduğu ABŞ Rusiyaya özünün ilk ultimatumunu verdi..."

**Sentyabrın 16-da ABŞ Birləşmiş Qərargahlar Rəisləri Komitəsinin sədri general Cozef Dunford və Rusiya müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun Azərbaycanın paytaxtında keçirilən görüşü planlaşdırıldığından az çəkib və müzakirələrin gedişində bir sıra ciddi fikir ayrılıqları yaranıb. Bu barədə Xəzər Hərbi Tədqiqatlar İnstitutu hərbi mənbələrə istinadən xəbər yayıb.**

Bildirilir ki, Rusiya tərəfi görüş zamanı çoxsaylı şərtlər irəli sürüb və ümumilikdə Birləşmiş Ştatların son zamanlar Rusiyaya qarşı siyasətinin sərtləşdirməsi səbəbləri və bunun perspektivləri ilə bağlı izahat tələb edib. Amerikalı general isə irəli sürülən şərtləri qəbul etmədiyini bəyan edərək əksinə, qarşılıqlı ittihamlarını və şərtlərini irəli sürüb. Beləliklə, tərəflərin ilk görüşü faktiki olaraq nəticəsiz başa çatıb.

Cozef Danford və Valeri Gerasimovun Bakı görüşü 2014-cü ildən sonra Rusiya ilə ABŞ arasında baş tutan ən yüksək səviyyəli hərbi danışıqlardır və aylardır tərəflər belə bir görüşün reallaşması üçün müzakirələr aparırmış.

Rəsmi məlumata isə baş qərargah rəislərinin Suriyadakı hərbi əməliyyatları, İŞİD-ə qarşı birgə mübarizəni və digər mühüm məsələləri müzakirə etdikləri, bu cür görüşlərin bundan sonra da keçirilməsi barədə razılıq əldə olunduğu bildirilir.

ABŞ Baş Qərargahları mətbuat xidmətinin yaydığı ilkin məlumatda deyilirdi ki, görüşdə tərəflər müxtəlif məsələləri, o cümlədən ABŞ və Rusiya arasında hərbi əlaqələrin hazırkı səviyyəsi müzakirə olunacaq.

Rusiyadan verilən açıqlamalarda isə ümumi olaraq "bir sıra siyasi məsələlər"in müzakirə olunduğu bəyan edilib.

Xəzər Hərbi Tədqiqatlar İnstitutu yaydığı xəbərdə bildirir ki, görüşlə bağlı Rusiya və ABŞ Müdafiə Nazirliklərinin yaydığı məlumatlarda bu ziddiyyət özünü göstərir. Belə ki, Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, tərəflər aşağıdakı məsələləri müzakirə ediblər: Rusiya-Amerika münasibətlərinin mövcud vəziyyəti, Avropada, yaxın Şərqdə, Şimali Afrikada və dünyanın digər vacib regionlarında təhlükəsizlik sahəsində vəziyyətin qiymətləndirilməsi.

Rusiya tərəfi bildirir ki, görüş nəticəsində hərbi fəaliyyətin təhlükəsizliyinin yaxşılaşdırılması, gərginliyin və risklərin azaldılması üçün birgə iş istiqamətləri müəyyənləşdirilib. Əlaqələrin davam etdirilməsi istiqamətində razılıq əldə olunub. Amma Amerika tərəfi başqa, Rusiya tərəfini təkzib edən məlumat yayıb. **ABŞ Silahlı Qüvvələri Birləşmiş Qərargahın strateji planlar və siyasət departamentinin direktoru, general-leytenant Frank McKenzie** ABŞ Müdafiə Nazirliyinin saytında dərc olunan açıqlamasında bildirib ki, bu görüşdə hər hansı ciddi qərarlar qəbul olunmayıb. Görüş sadəcə, tərəflər arasında əlaqə bağlantısının qurulması baxımından vacib olub: "İki hərbi şef siyasəti və ya siyasi məsələləri müzakirə etməyiblər. Dunford-Gerasimov görüşü sadəcə olaraq, onlar arasında əlaqənin qurulması məqsədilə keçirilib. Tərəflər bu görüşdə bir-birini görə biliblər, bunu telefonda etmək çox çətin idi".

Buna baxmayaraq Amerika tərəfi Gerasimovu "asan tərəf müqabili kimi" xarakterizə edib. Frank McKenzie bildirib ki, Amerika tərəfi indiyə qədər onunla telefon əlaqəsində hər hansı çətinlik çəkməyib.

Dünyanın iki nəhəng dövlətinin, özü də dünyada tək güc olmaq uğrunda qarşı-qarşıya duran dövlətlərin baş qərargah rəislərinin Bakı görüşü və bu görüş barədə qeyd olunduğu şəkildə bir-biri ilə uyğun gəlməyən məlumatların yayılması yaxın dövrlər üçün dünyaya nə vəd edir? **Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslində ABŞ və Rusiya baş qərargah rəislərinin görüşündə müzakirə olunan məsələlər barədə ciddi razılaşmalar əldə olunmadığını söyləmək mümkündür: "İlkin olaraq bu nəticəyə gəlmək mümkündür ki, bu görüşdə məqsəd əslində razılaşmalar əldə etmək deyilmiş. ABŞ-la qarşıdurma xətti tutulacaqsa, bu, Rusiyanın özü və dünya üçün çox böyük fəlakətlər gətirə bilər. Böyük ehtimalla bu, Rusiya baş qərargahının rəhbərinin nəzərinə çatdırılıb. Suriya məsələsini, Yaxın Şərq məsələsini ABŞ öz inhisarına götürür. Amma Rusiyaya bildirilir ki, əgər hərbi sahədə terrora qarşı birgə mübarizə aparmaq istəyiriksə, ABŞ əməkdaşlığın konkret növünü təklif edir. Yəni sırf beynəlxalq terrorizmə, İŞİD-ə qarşı birgə mübarizədə əməkdaşlıqdan söhbət gedə bilər. Amma qalan sahələrdə hələ ki, əməkdaşlıq gündəmdə deyil. Bu görüşü dünyanın yenidən bölüşdürülməsində ABŞ-ın Rusiyaya güzəştə getməyəcəyini ABŞ öz baş qərargah rəisinin vasitəsilə Rusiyanın nəzərinə birbaşa çatdırmaq üçün keçirilən görüş də adlandırmaq mümkündür. ABŞ-Rusiya münasibətləri, həm də NATO-Rusiya münasibətləri özünün yeni mərhələsinə qədəm qoyur. Bu münasibətlər getdikcə gərginləşən xətt üzrə artmalı və zənnimcə müəyyən yerlərdə lokal güc tətbiqinə qədər inkişaf edəcək. Bu prosesdə hələ ki ilk mərhələ Ukraynanın ərazi bütövlüyünün təmin edilməsi və NATO-nun daha möhkəmləndirilməsi məsələsidir ki, artıq bunlar həyata keçirilməyə başlayıb. Proses Trampın tələblərindən biri olaraq həyata keçilir. ABŞ-Rusiya qarşıdurması artacaq və bu vəziyyət dünyanı silkələyəcək".


Qabil Hüseynli

**Politoloqun fikrincə, baş qərargah rəislərinin görüşü, belə demək mümkünsə, həm də Rusiyaya müəyyən məqamları xatırlatmaq və onun hərəkətlərindəki müəyyən hərbi addımları korrektə etməyin zəruriliyini onun nəzərinə çatdırmaq məqsədi güdüb**: "Şübhəsiz ki, Amerika dərhal nəticəyə nail olacağı qənaətində deyildi. Amma ABŞ baş qərargah rəisinin vasitəsilə bunları söyləməklə siyasi hərbi və siyasi rəhbərliyini bir növü xəbərdar etmək istəyirdi. Bu görüşün əsas nəticəsini o şəkildə ifadə etmək olar ki, Trampın prezidenti olduğu ABŞ Rusiyaya özünün ilkin ultimatumunu verdi".

❑ Etibar SEYİDAĞA

# "Bakı zirvəsi Azərbaycana dividentlər qazandıracaq"

**Elçin Mirzəbəyli:** "Belə bir görüşün Bakıda baş tutması, Azərbaycanın dialoq məkanı kimi dünyada mövqelərinin və nüfuzunun daha da möhkəmlənməsi deməkdir"



**Fevralın 16-da Bakıda ABŞ-ın Baş Qərargah Rəisləri Komitəsinin sədri, general Cozef Danford və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeriy Gerasimovun görüşü baş tutdu. Generallar eyni zamanda ölkə prezidenti İlham Əliyev və müdafiə naziri Zakir Həsənovla da görüşdülər.**

Ekspertlər bildirirlər ki, dünyanın iki iri dövlətinin generallarının məhz Bakıda görüşməsi, müsbət haldır və bu kimi faktlar, Azərbaycanın regionda söz sahibi olmasını göstərir.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Elçin Mirzəbəyli**yə görə, burada bir sıra mühüm məqamlar var: "Bu görüşün Azərbaycanda keçirilməsinin subyektiv səbəbləri də var. Tərəflər özləri də qeyd etdilər ki, Azərbaycan neytral ölkə olduğu üçün onlar buranı seçiblər. Fikrimcə, bu arqument əsasında verilən mesajın özü də əhəmiyyətlidir. O baxımdan ki, ABŞ və Rusiya kimi güclü dövlətlər Azərbaycanın neytrallığını qəbul edirlər. Nəticədə isə çox əhəmiyyətli bir məsələlərin müzakirəsi ilə bağlı ölkəmizə gəlirlər. Digər amil isə Azərbaycandakı təhlükəsizlik və sabitliklə bağlıdır ki, bunu da bir çox istiqamətlərdə qiymətləndiriblər. Bu məsələnin müzakirə olunmasına belə ehtiyac yoxdur. Bu cür görüşün Bakıda baş tutması, şübhəsiz ki, Azərbaycan üçün bir sıra dividentlər gətirir. Birincisi, bu, Azərbaycanın dialoq məkanı kimi dünyada mövqelərinin və nüfuzunun daha da möhkəmlənməsi deməkdir. Eyni zamanda beynəlxalq münasibətlərdə tənzimləyici funksiya yerinə yetirən bir ölkə kimi də mövqeyimiz daha da güclənir. Bundan başqa, bu cür görüşün məhz Bakıda baş tutması, ölkənin piarı baxımından əhəmiyyətli addımdır. Məlum olduğu kimi bu, Donald Tramp prezident seçildikdən sonra Rusiya və ABŞ-ın hərbi qərargah rəisləri səviyyəsində ilk canlı təmasıdır. Bundan öncə onlar yalnız telefon danışıqları aparıblar. İlk canlı təmasın da məhz Azərbaycanda baş tutması, əhəmiyyətlidir. Nəzərə alaq ki, görüşdə əsas mövzular Yaxın Şərq, Aralıq dənizi və Suriyada baş verən proseslərlə bağlı olub. Bu gün dünyanın da gündəmi məhz elə bu məsələlərdir".

**Ekspert bildirdi ki, dünyanın gündəmi ilə bağlı razılaşmaların coğrafi ərazi kimi Azərbaycanda həyata keçməsi bütün beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə cəlb edir:** "Dünya mediasının da diqqəti də Azərbaycana cəlb olunur ki, bu da şübhəsiz ki, ölkəmiz haqqında müsbət təəssüratların yaranmasına zəmin yaradır. Qənaətimə görə, hadisənin özü kifayət qədər ciddi faktdır. Bu, tarixə "Bakı görüşü" kimi keçəcək. Bu görüşün Dağlıq Qarabağ münaqişəsinə təsirlərinə gəlincə, sözsüz ki, birbaşa hər hansı faydanın dəyməsindən söhbət gedə bilməz. Ancaq təbii ki, belə görüşlərdə adətən bütün münaqişələr müzakirə olunur. O cümlədən postsovet məkanındakı münaqişələr bura daxildir. Görüşdə Azərbaycanla, Azərbaycanın ərazisinin işğalı ilə bağlı məsələlərin də müzakirə olunması istisna deyil. Bütövlükdə hər iki dövlətin hərbi rəhbərliyinin Azərbaycanda görüş keçirməsi, Dağlıq Qarabağ münaqişəsi istiqamətində də bizə müəyyən dividentlər qazandırır. Yeni əlaqələrin genişlənməzi üçün zəmin yaranır. Hər iki ölkə ATƏT-in Minsk Qrupunun həmsədridir. Həmsədr ölkələrin isə hərbi rəhbərliyi ilə münasibətlərin inkişafı əhəmiyyətli haldır. Şübhəsiz ki, bu kimi hallar ümumilikdə ölkəmizin mövqelərinin möhkəmlənməsinə xidmət edir. Bu da dolayısı yolla həm də Azərbaycanın Qarabağ mövzusunda mövqeyinə də təsirsiz qalmır".

❑ Əli RAİS

# Manat yenidən ucuzlaşmağa başladı

## Ekspertlər durumun tam nizamlanacağına inanmırlar, imkan var, ancaq...

**Manat iki həftəlik qalxmadan sonra yenidən enişə yuvarlanmaqdadır. Artıq son hərracda manat dollar qarşısında dəyər itirib. Mərkəzi Bank 17 fevral tarixinə valyuta məzənnələrini açıqlayıb və məlum olub ki, ABŞ dollarının rəsmi məzənnəsi 1,7352 manat təşkil edir. Manata nəzərən avronun məzənnəsi isə 1,8522 manat təşkil edir. 1 türk lirəsi 0,4728 manat, 1 rus rublu 0,0301 manatdır.**

Qlobal bazar üzrə məlumatlar göstərir ki, bu həftə dollar yenidən bahalaşmağa başlayıb. Manat dollar qarşısında 0,32 faiz, Rusiya rublu isə 0,7 faiz ucuzlaşıb. Hazırda USD\manat 1,7352 səviyyəsinə yüksəlib. Həmçinin, rublun eniş tendensiyası onun məzənnəsini 57,5351-ə salıb. Funt isə əksinə, 0,20 faiz bahalaşıb və hazırda 1,2487-yə satılır. Avronun bahalaşması həftənin ən yüksək tendensiyasını göstərib. Avropa iqtisadiyyatının pul vahidi 0,66 faiz bahalaşma ilə 1,0673 məzənnəsi ilə mübadilə olunur. S&P 500 indeksi isə artımlardan sonra yenidən ucuzlaşmağa başlayıb. Lakin düşmə tendensiyası çox zəif, 0,1 faiz təşkil edir 2347,22 dollara ticarət olunur. Qızılın bahalaşması isə yenidən onu qalxma tendensiyasına görə lider mövqeyinə çıxarıb. Belə ki, hazırda qızıl 1241,6 dollara satılır.

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, tezliklə manat ucuzlaşmaqda davam edəcək: "Manat möhkəmləməsi başlanan zaman da bunu bildirmişdim. Demişdim ki, fevralın ikinci yarısı, eləcə də mart ayında büdcə ayırmaları səbəbindən manat ucuzlaşacaq. Eyni zamanda manat bazasının genişlənməsinə gətirib çıxaracaq, dollara tələbin artması gözlənilir. Çünki mart ayında idxal artır, bayramlar ayıdır, ölkəyə daxil olan idxal artır. Eləcə də dekabr ayında idxalın həcmi artmışdı. Şirkətlər yenidən idxal məhsullarının sayını artırırlar. Çünki dekabr ayında idxal bolluğu yanvar-fevral aylarında həmin məhsulların qiymətində azalmaya gətirib çıxardı. Eyni zamanda, mart ayında həm də on günə yaxın bayram olacaq. Xarici səfərlərin sayı çoxalacaq. Yenə də dollara tələb artacaq. Bir sıra inkişaf etmiş ölkələrdə, o cümlədən Böyük Britaniyada maliyyə ili ilə təqvim ili fərqlidir. Maliyyə ili aprelin 1-də başlanıb, mart ayının 31-də başa çatır. Bu da borclanmış həm sahibkarların və bankların borclarını geri qaytarmasını zəruri edir. Bu da nəticə etibarı ilə məhz dollara tələbi artırır. Ona görə də mart ayında dollara tələbin artacağı gözlənilirdi. Proqnozlaşdırdığımız kimi də, dollar möhkəmləndi. Eləcə də bizim monitorinqlərimiz göstərir ki, bazar təklifi azalıb. Yəni manat möhkəmləndi və manatın möhkəmlənməsi fonunda əvvəlki dövrlərdə dolarla yığım edən vətəndaşların bir qismi dolları manata çevirdilər və bazar təklifi yarandı. Cari xərclərdən əlavə, bazar təklifi yarandı. Təbii ki, manatın dəyər qazanmasını sürətləndirdi. Artıq həmin bazar təklifi azalıb. Çünki dolları manata çevirənlərin sayı azalıb. Əksinə, bu gün dollar alanların sayında artımlar var. Çünki artıq manatın möhkəmlənməsindən sonra yenidən dolların manata nisbətən möhkəmlənməsi dollara tələbi artırıb. Bu baxımdan, bazarda vəziyyət hələlik dollara tələbin artması istiqamətindədir. Təbii ki, dollara tələbin artması da özünü sırf manata nisbətən məzənnəsinin artmasında da göstərir. Dolların manata nisbətən məzənnəsində möhkəmlənmə qeydə alınıb".



**Ekspertin sözlərinə görə, proses manatın ucuzlaşması ilə də davam edəcək:** "Proses ötən həftədən başlayıb. Bu həftə manat- dollar münasibətlərini, eləcə də valyuta bazarındakı tələb-təklifi təhlil edən zaman gəlinən nəticə ondan ibarətdir ki, bu həftə dollara tələbin artması ilə yadda qaldı. Müşahidə olundu. Bazarda dolar təklifi azaldı, tələb isə artdı. Ötən həftə hərraca çıxarılan 35 milyon satılmadı, amma bu həftə keçirilən iki hərracda tələb təklifi üstələdi. Birinci hərracda 35 milyon, ikincidə 50 milyon satıldı. Bu da tələbin artması ilə bağlıdır. Bazarda proqnozlaşdırdığımız kimi dollara tələb artır və dolların məzənnəsinə təsir göstərir. Yenə Mərkəzi Bank mövcud məbləğdə, yəni 35-50 milyon arası hər hərraca valyuta çıxaracaqsa, bu, sözsüz ki, dollara tələbin artması fonunda onun möhkəmlənməsinə səbəb olacaq".

**V.Bayramov qeyd edib ki, Mərkəzi Bank vəziyyətdən bir şans kimi istifadə etməyə çalışmalıdır:** "Əslində manatın məzənnəsi mövcud intervalda stabilləşməlidir, bu vacibdir. Mərkəzi bank buna çalışmalıdır. Kommersiya banklarına stabil məzənnə lazımdır. Dəyişən, xüsusən də qısa zamanda çox dəyişən məzənnə biznes, eləcə də banklar üçün əlverişli deyil. Biznes və banklar üçün çox az faizlə dəyişən məzənnəyə ehtiyac var ki, onlar öz işlərini proqnozlaşdıra bilsinlər. Əks dollarlaşma prosesi başlansın. Sahibkar və vətəndaşlar artıq öz pullarını sərmayə etsinlər, yaxud manata çevirərək real sektora yönəltsinlər. O baxımdan, dollara tələb yüksəkdir, amma dekabr ayında olduğu kimi deyil. Ona görə bu faktor da imkan verir ki, Mərkəzi Bank prosesin stabilləşdirilməsi ilə bağlı addımlar atsın. Dövlət Neft Fondunun Mərkəzi Banka 7,5 milyard manatlıq transferi var. Həmçinin Dövlət Neft Fondu büdcəyə transfer edəcək. Ümumilikdə 2017-ci ildə Neft Fondunun büdcəsi 14,5 milyard manatdır. Bu isə kifayət qədər ciddi bir rəqəmdir. Mövcud məzənnə ilə birbaşa dollar ifadəsində ödənişlər istisna olunduqda belə, 8 milyard dollardan artıq vəsaitdir. Ona görə bu imkanlar var, rıçaqlar var. Mərkəzi Bank nəticə etibarı ilə çalışmalıdır ki, proses məzənnənin stabilləşməsinə nail ola bilsin. Çünki dollara tələb artıq yüksəlib. Amma tələb o səviyyədədir ki, Mərkəzi Bank tərəfindən idarə oluna bilər. Bu baxımdan, növbəti dövrdə dollara olan tələbi, eləcə də prosesi bazar məzənnəsinin qaydaları çərçivəsində tənzimləyə bilərsə, ciddi şəkildə inzibati müdaxiləyə ehtiyac yoxdur. Sadəcə, hərraclar vasitəsi ilə prosesi nizamlamaq imkanı var. Biznes və banklar üçün bu gün ən ciddi və ən real addım, Mərkəzi Bank tərəfindən atıla biləcək addım məzənnənin stabilliyinə nail olmaqdır. Bu, olduqca vacibdir. Bankların həm sağlamlaşdırılmasına, həm real sektora manat ifadəsində vəsaitlərin cəlb edilməsinə şərait yarada bilər".

**Qeyd edək ki, dollar bahalaşdıqca, ölkə bankları valyuta satışına qoyulan limiti götürürlər. Fevralın 17-də dolları limitsiz 14 bank satıb. Həmçinin bir sıra banklar dollar satışını dəfələrlə artırıblar. Mərkəzi Bank isə bir tərəfdən də manat kütləsini satışdan çıxarmağa çalışır. Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş növbəti depozit hərracında tələb 204,4 milyon manat, hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə 14,73 faiz təşkil edib. Mərkəzi Bank 200 milyon manat cəlb edəcəyini bəyan etmişdi. Beləliklə, tələb təklifdən çox olub. Qeyd edək ki, depozit hərracları izafi pulun dövriyyədən çıxarılması (sterilizasiyası) məqsədilə keçirilir.**

❑ AMİN



# "Dəqiq məlumatdır ki, Novruzda əfv olacaq"

## Əfv Komissiyası hazırlıqlarını sürətləndirib; **Səidə Qocamanlı**: "Mane olmaq istəyənlərə üzümü tutub deyirəm ki..."

**Novruz bayramında əfv veriləcəyi artıq dəqiqləşib. Azərbaycan hakimiyyətinin mart-aprel aylarında ölkədə iqtisadi və siyasi islahatlar həyata keçirəcəyi, veriləcək əfvin isə siyasi islahatların tərkib hissəsi olacağı vurğulanır.**

Bəzi siyasi məhbusların da bu əfvlə azadlığa buraxılacaqları barədə xəbərlər dolaşır. REAL sədri İlqar Məmmədov, NİDA-çı gənclər-İlkin Rüstəmzadə, Əbdül Əbilov, AXCP-dən Seymur Həzi, Məmməd İbrahim və Elvin Abdullayevin əfvə düşəcəyi bildirilir. Maraqlıdır ki, sabiq səhiyyə naziri Əli İnsanovun da adı bu sırada çəkilir. Amma məsələ ondadır ki, sabiq nazirin əvvəlki 11 illik cəzası ötən ilin oktyabrında başa çatıb, o hazırda həbs qətimkan tədbiri qərarı ilə barəsində açılmış digər cinayət işi üzrə təqsirləndirilən şəxs qismində saxlanılır.

Yəni barəsində məhkəmə hökmü olmadığından onun əfvə düşməsi mümkünsüzdür...

**İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova** yayılan xəbərlərlə bağlı bunları dedi: "Fevralın 17-də İlqarla telefonla danışdıq. Əhvalı yaxşıdır. Ötən həftə AŞPA-nın hüquqi məsələlər və insan hüquqları komitəsinin məruzəçisi Alan Destekslə cəzaçəkmə müəssisəsində görüşüb. Desteks İlqarla xeyli söhbət edib, onun qaldığı şəraitlə maraqlanıb. Novruzda əfv olacağı çox yaxşı haldır. Ümid edirik ki, olar və bir çox məhbus azadlığa çıxar, eləcə də, siyasi məhbuslar. Artıq 4 ildir ki, eyni sualı eşidirəm və hər dəfə də eyni cavabı verirəm. Əfv olsun, kimlərin azadlığa çıxdığını o zaman görəcəyik".

Əfv Komissiyasında artıq əfv hazırlıqları sürətlənib. Qurumun fevralın 16-da iclası keçirilib. Bu barədə mətbuata **Prezident yanında əfv Komissiyasının üzvü Rəşad Məcid** məlumat verib. Onun sözlərinə görə, quruma 800-dən artıq müraciət daxil olub və iclasın ilk günündə 150-nə baxılıb: "Komissiyanın iclası davam edəcək. Yaxın həftələrdə bütün müraciətlərə baxılacaq. Güman edirik ki, prezident İlham Əliyev Novruz bayramı ərəfəsində əfv fərmanı imzalayacaq".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı** da martda əfvin olacağını təsdiqlədi: "Birmənalı şəkildə deyirəm, mütləq əfv olacaq. Artıq bu barədə məlumatlar həm sizdə, həm də bizdə var. Ya Yeni il, ya da Novruz bayramı ərəfəsində əfvin verilməsi artıq ənənəyə çevrilib. Bu artıq dəqiq məlumatdır ki, Novruzda əfv olacaq. Cəmiyyəti əsas düşündürən məsələ odur ki, kimlər əfvə düşəcək. Hər kim əfvə düşsə, onlar Azərbaycan vətəndaşlarıdır. Hər birinin ailələrinə qayıtmaları alqışlanmalıdır. Hüquq müdafiəçisi kimi bizləri narahat edən məsələlərdən biri də odur ki, siyahımızda olan 27 nəfərə də əfv şamil olunsun. İlqar Məmmədovun adı çəkilir, biz də çox ümid edirik ki, o azadlığa buraxılacaq. 27 nəfərlik siyahımızı lazımı qurumlara təqdim etmişik. Bunlar kimlərdir? İlk növbədə bloggerlər, jurnalistlər, gənc fəallar, İlqar Məmmədov, səhhəti ağır olanlardır. Siyahımızda 6-7 nəfər məhbus var ki, cəzalarının böyük hissəsini çəkiblər. Artıq imkan var ki, azadlığa çıxsınlar. Əli İnsanovun da adı orada var. Bu şəxslərə əfvin şamil olunacağını indidən deyə bilmərik. Bu, birbaşa prezidentin səlahiyyətindədir. Cənab prezident humanist insandır. İnanıram ki, siyahımızda olanlar azad olunacaqlar, bizlər də sevinəcəyik. Biz də onların ailələri kimi iztirab çəkirik".

**Hüquq müdafiəçisi marta qədər kənar təsirlərin olmayacağı halda əfv siyahısının geniş olacağını da qeyd etdi:** "Dəfələrlə olub ki, əfv siyahıları hazırlanıb, bizi narahat edən şəxslərin adları orada olub, amma beynəlxalq təşkilatlar, ölkə daxilində olan bəzi şəxslər tərəfindən elə addımlar atılıb, müsahibələr verilib ki, azadlığa çıxma prosesinə stop qoyulmasına səbəb olub. Bu prosesə mane olmaq istəyənlərə indidən üzümü tutub deyirəm ki, siz azadlıqda olduğunuzu unutmayın. Heç olmasa, məhbus həyatı yaşayanların ailələrini düşünün. Onların taleləri ilə alver etmək olmaz. Palaz-palaz siyahılarla Avropanı gəzib Azərbaycanı biabır etməyə çalışırlar. Ola bilər ki, sizlər öz adınıza nələrsə qazanırsınız, amma məhbus ailələri itirirlər. Heç olmasa bir dəfə insafınız olsun, insan kimi o ailələri düşünün. Kənardan Azərbaycanı söyməklə heç nəyə nail olmaq mümkün deyil. Sonunda bu şəxslər artıq bunu anlamalıdırlar".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu** cebhe.info-ya açıqlamasında deyib ki, bütün siyasi məhbusların adı əfv siyahısına salınıb: "Əli İnsanov, İlqar Məmmədov və digər siyasi məhbusların adı əfv siyahısına salınıb. Biz gözləyirik ki, əfv Novruz bayramı ərəfəsində reallaşacaq".

❑ Cavanşir ABBASLI



# Bələdiyyə vəziyyəti

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında deputatxanada yığışdılar, hərbi vəziyyət haqda qanunu nəsə təzədən qayırdılar. Müəyyən yerlərində kəm-kəsir hələ qalırmış. Dəhşətdir. 30 ildir azğın düşmənlə atəşkəs müharibəsi aparıb təpə-təpə, qarış-qarış irəliləyirik, artıq Ermənistan boşalıb, ancaq hərbi vəziyyət haqda qanunumuzda hansısa kamillik çatışmırmış. Hansısa maddə yerinə düzgün oturmayıbmış. Belə çıxır, biz torpağı qanunsuz geri qaytarmışıq.**

Axı bizim ölkədə hər bir şey qanuna uyğun olmalıdır! Hüquqi dövlətik biz. Dünyada başqa ölkədə ASAN xidmət yoxdur! Bizim 1 nazirin işlədiyi 25 il ərzində Almaniyada 25 nazir dəyişilir, Yaponiyada ümumiyyətlə administrativ zəlzələdir, baş naziri salfetka kimi təzələyirlər. Ona görə hamısı bizdən pis yaşayır. Xirosima və Naqasakidə hətta bir gündə 250 min adam qırılmışdı. Təsəvvür elə, gözünü yumub açırsan, Sumqayıtla Gəncə yoxdur. Dəhşət. Nə yaxşı bizdə sabitlikdir. Buna görə dövlət rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

Hərbi qanun yazdım, yadıma düşdü, vaxtilə Surət Hüseynovu tutub məhkəmədə iş kəsəndə onun qanuni hərbi mükəlləfiyyət, status daşımadığı aşkara çıxmışdı. Sən demə, bunu korpus komandiri-zad qoyublar, ancaq bu, hərbi and içməyibdir. Hərbi and içməyən isə hərbçi sayılmırmış. Belənçik acaib durum idi, sonra yadımda deyil, hansı maddələri şələyib qoduqluğa basdılar. Hərçənd, türmədə kamerasının qabağına qoduq yox, it leşi qoyub işgəncə verirdilər. Bunlar hamısı bizim şanlı tarixdir, “uşaqlara öyrədin, ləzzət aparsınlar” - Əbdürrəhim bəy demişkən.

Ancaq hərbi qanun müzakirə ediləndə çox müsbət bir fakt da bilindi. Dəyişikliyə görə, indən belə Azərbaycanda hərbi vəziyyət elan edilsə, prezident seçkiləri, ümumiyyətlə, bütün seçkilər 10 illiyə təxirə salınacaqmış.

Əladır. Deməli, indən belə bizdə seçki keçirilməsi ehtimalı yaranır! Yoxsa niyə qanuna bu sözü salsınlar? Kimə sərfəlidir? Nəyə lazımdır? Dana ətinin kilosu nə üçün bahalaşıb? (Axırıncı sualı müəllifə arvadı verdi, təsadüfən düşdü bura, fikir verməyin - Müəllif).

Bahalaşma demişkən, baş nazirin müavini Əli Əhmədovun dükanları gəzib qiymətləri şəxsən nəzarətdə saxlaması bütün zəhmətkeşlərimizi kimi, məni də çox sevindirdi. Düzü, mən Əli müəllimin üzdən Hacıbala Abutalıbova bu qədər bənzədiyinə heç fikir verməmişdim, süjetdən yadımda qalan əsas fakt bu oldu. Misir Mərdanov isə Əli Həsənova çox oxşayır. Qaçqınkomun sədrinə. Bu da onu göstərir ki, Qarabağ bizimdir!

Qanunların işləməsi camaat üçün çox vacibdir. Bir faktı da yazım, özünüz qiymət verin.

İki gün qabaq evə gəlirəm, görürəm arvad-uşaq oturub ağlaşırlar. Elə bildim, təzə işıq pulu qəbzi gəlib, ancaq sən demə, ayrı söhbət imiş: kimsə gətirib qapıya bir kağız taxıb, kağızın üstündə isə muncuq kimi xətt ilə həkk edilibdir ki, bəs, filan ilin filan qanununa görə siz bələdiyyəyə əmlak vergisi verməlisiniz, əks halda sizi tutub 40 manat cərimə edəcəyik. Uşaqlar da elə anlayıblar artıq cərimə olunmuşuq, o üzdən ağlaşma qurublar.

Görəsən bu bələdiyyə nə idarədir ki, salam-kalamsız adamın üstünə anqırmaq: cərimə yazmaq səlahiyyəti əldə edibdir? Mən belə bir idarə tanımıram. Qonşulardan soruşdum, onlar da dedilər, görməmişik, yalnız biri uzun müddət fikirləşib dedi ki, bu bələdiyyə dördüncü blokda yaşayan Bələd kişinin Suriyaya ərə gedən qızı olacaq, yəqin ərini öldürüblər, qara kağızı səhv gəlib.

Başqa qonşu dini kitab açdı, fala baxdı, dedi, ola bilsin bu bələdiyyə başqa planetdən gələn yəcuc-məcuc qəbiləsinin ismi-şərifidir. Üçüncüsü Avropa oyunlarında könüllü olan cavan oğlan idi, bu dedi siz bilmirsiniz, təzəlikcə sərəncam çıxdı, rabitə ilə nəqliyyatı birləşdirib adını bələdiyyə qoydular. Dördüncü əslən Bakı kəndlərindən qaqaş idi, dedi bu sözü ola bilsin səhv yazıblar, “arginalı” “bələdü ya” şəklindədir, guya kimsə mələyə (böyük ehtimal məhəlləni nəzərdə tuturdu) təzə zakon qoyur, deyir, indən belə hər şey mən deyən kimi olmalıdır, yəni, bələdü.

İndi mən qalmışam qırıla-qırıla, bilmirəm bu bələdiyyə hardan çıxdı. Guya biz Almaniyada yaşayırıq? Nə üçün camaata pis sözlər öyrədirlər? Vergi nədir, əmlak nədir, seçki nədir, a kişi?

**Hərbi vəziyyəti tez elan eləsəydilər rahat olardıq.**

# Azərbaycanın gücünə güc qatanlar




# Yeni müharibə taktikası - Bakı 2 paytaxtla hərbi ittifaqı təzələyir

**Qarabağ danışıqları dalana girsə də, Azərbaycan konflikt ətrafında situasiyaya dinamiklik verməyə və vəziyyəti diktə etməyə çalışır. Bu dinamiklik hərbi əməliyyatlar mümkün olmasa da, işğalçı tərəfi - “çağırılmamış qonaqlar”ı daim gərginlikdə saxlamağa, onu bacardıqca daha çox canlı itkiyə məruz qoymağa hesablanıb.**

## Prezident İlham Əliyevin xaricdə keçirdiyi və keçirəcəyi mühüm görüşlərin pərdəarxası; İsrail və Pakistanla hərbi əlaqələrə yeni stimul verilir; işğalçı Ermənistanın “Dəmir günbəz” xofu, müharibə təlaşı boşuna deyil...

**Bir sıra təhlilçilərə görə, Azərbaycan münaqişə zonası ilə bağlı taktikasını artıq dəyişib. Müdafiə Nazirliyində ötən həftəsonu keçirilmiş geniş toplantı ilə bağlı yayılan rəsmi informasiyadan da görünür ki, Bakı artıq Dağlıq Qarabağ ətrafındakı işğalçı qüvvələrin bütün postları, canlı və hərbi texnikası hədəfə alınmaqdadır və bu yöndə taktiki-strateji hazırlıqlar artırılır.**

***

Bu arada öz işinə başlamış ənənəvi Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan prezidenti İlham Əliyevlə İsrailin müdafiə naziri Avidqor Liberman arasında görüş olub. İsrail Müdafiə Nazirliyinə istinadla yayılan informasiyalara görə, görüş zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsi məsələləri müzakirə olunub.

Bildirilir ki, bazar günü İsrailin müdafiə naziri beynəlxalq tədbirdə nitq söyləyəcək, keçirdiyi görüşlərdə isə o, İsraillə xarici ölkələr arşında hərbi əməkdaşlığın daha da genişləndirilməsi, habelə beynəlxalq və regional terrorizmə qarşı birgə müqavimət məsələlərini müzakirə edəcək.

**Qeyd edək ki, Əliyev-Liberman görüşü İsrail baş naziri Benyamin Netanyahunun Bakı səfərindən sonra tərəflər arasında baş tutan növbəti yüksək səviyyəli görüşdür.** Nəzərə alsaq ki, Avidqor Liberman Azərbaycanın lobbiçilərindən biridir və müdafiə sahəsinə baxır, o zaman qarşıdakı görüşün ikiqat önəm daşıdığını ehtimal etmək olar. Söhbət öncəliklə İsrailin Azərbaycana vəd elədiyi və işğalçı Ermənistanın qorxulu röyası sayılan “Dəmir günbəz” raketdən müdafiə sisteminin verilməsindən gedir.

***

İsraillə sıx təmaslar öz yerində, prezident İlham Əliyevin dost-müttəfiq və hərbi tərəfdaşımız Pakistana isə səfəri nəzərdə tutulur. Bu haqda yazan Pakistanın “Tribune” qəzeti qeyd edib ki, Azərbaycanın dövlət başçısı səfər çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) iclasında iştirak edəcək (virtualaz.org).

İlham Əliyevin Pakistana səfəri martın ilk günlərində baş tutacaq. Onunla birlikdə Pakistana azərbaycanlı nazir və məmurlardan ibarət böyük nümayəndə heyətinin də yollanacağı bildirilir. Tərəflər arasında bir sıra iqtisadi sazişlərin imzalanması ilə yanaşı, hərbi və hərbi-texniki sahədə də yeni anlaşmaların əldə ediləcəyi də gözlənilir.

**Yada salaq ki, İlham Əliyevin Pakistana səfər edəcəyini hələ ötən ilin noyabrında həmin ölkənin Bakıya səfər eləmiş prezidenti Məmnun Hüseyn bildirmişdi.** O zaman o, iki ölkə arasında hərbi əlaqələrin genişləndirildiyini və bu əlaqələrin keyfiyyətcə yeni səviyyəyə keçməsini qeyd etmişdi. Pakistan prezidenti həmçinin demişdi ki, bu ölkənin alim və mütəxəssisləri iqtisadi cəhətdən sərfəli və keyfiyyətli silahlar işləyib hazırlayır və Azərbaycan belə bir əməkdaşlıqdan fayda götürəcək. O, Azərbaycana ölkəsinin müdafiə institutlarının xidmətlərindən istifadə edərək hərbi kadrların yetişdirilməsini də tövsiyə etmişdi.

Öz növbəsində Azərbaycan prezidenti Pakistanla hərbi əməkdaşlığa mühüm önəm verdiyini vurğulayaraq, bu ölkədən bir sıra müasir hərbi sistemlərin alınmasında və onların Azərbaycanda birgə istehsalını təşkil etməkdə maraqlı olduğunu bəyan etmişdi. Bu xüsusda gözlənilir ki, İlham Əliyevin Pakistana səfəri çərçivəsində iki ölkə arasında hərbi-texniki əməkdaşlığın genişləndirilməsi məsələləri diqqət mərkəzində olacaq.

***

**Beləcə, prezident İlham Əliyevin xaricdə keçirdiyi və keçirəcəyi iki mühüm görüşün hədəfləri təxminən bəllidir.** Həmin görüşlərin İsrail və Pakistanla hərbi sferada əlaqələrə yeni stimul və dinamika verəcəyi gözlənilir. Rəsmi Bakının istər İsrail, istərsə də növə müttəfiqimiz Pakistanla hərbi əməkdaşlığı, bütövlükdə hərbi qüdrətini artırmaq üçün “şaxələnmiş” hərbi strategiyaya üstünlük verməsi isə ən çox işğalçı Ermənistanı narahat edir. Həm də o səbəbə ki, Azərbaycanın bu yöndə əməkdaşlıq etdiyi ölkələr ən müasir hərbi texnologiyalara malikdir.

Ermənistanın isə belə imkan və potensialı bəlli səbəbdən yoxdur. O, yalnız Rusiyanın “ümidinə” qalıb. Rusiya isə öz silah-sursatını normal qiymətə satıb kasad büdcəsini doldurmaqda daha çox maraqlıdır, nəinki Ermənistana peşkəş etmək və ya su qiymətinə satmaqda. Təsadüfi deyil ki, Moskva İrəvana iki il öncə vəd etdiyi 200 milyon dollarlıq kredit çərçivəsində hərbi silah-sursatın hələ də yalnız bir qismini Ermənistana verib.

Yeni müharibə xofu ilə yaşayan işğalçı isə tələsir, təlaş içindədir. Bu təlaş o dərəcədə ciddidir ki, bir neçə gün qabaq hətta ABŞ ermənilərinin qurumu olan Amerikanın Erməni Milli Komitəsi ABŞ Dövlət Departamentinə müraciət edərək, Vaşinqtondan İsrailin Azərbaycana “Dəmir günbəz” raketdən müdafiə sistemi verməsini əngəlləməyi xahiş edib. “Azərbaycana ”Dəmir günbəz"in satılması sülh prosesinə və bu yöndə ATƏT-in, ABŞ-ın səylərinə zərbə vuracaq. Bu isə regionda sabitliyin pozulmasına gətirə bilər", - deyə qurumun sədri Aram Abramyan müraciətdə iddia edib.

Əlbəttə ki, ermənilərin dərdi hər vəchlə Azərbaycanı hərb variantından çəkindirmək, onların xeyrinə gedən sülh “prosesini” və status-kvonu saxlamaq, işğal rejimini daha uzunömürlü eləməkdir. Əsas məqsəd də nə vaxtsa Azərbaycanın bundan bezib, guya Dağlıq Qarabağın “müstəqilliyi”ni tanımaq zorunda qalacağı ilə bağlıdır.

**Lakin İlham Əliyev Pirəkəşküldəki hərbi şəhərcikdə az öncə etdiyi çıxışında həm Ermənistana, həm də onun havadarlarına qəti şəkildə bəyan edib ki, “Azərbaycan torpaqlarında heç vaxt ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verilməyəcək, kim bunu gözləyirsə, boşuna gözləyir”.**

**Siyasət şöbəsi**

# Tramp böhranı Rusiya və İranı hərəkətə gətirir

## Elxan Şahinoğlu: "Amerikanın dostları azala bilər, ancaq qüdrəti azalmayacaq..."

**Amerikada Donald Tramp dönəmi başlayandan sonra dünyanın əsas super gücünün daxilində böhran getdikcə dərinləşir. Görünən odur ki, proseslər bu şəkildə davam edərsə, ABŞ digər ölkələr üzərində təsirini getdikcə itirə bilər.**

Bundan isə heç şübhəsiz ki, ən çox yararlanmağa çalışanlar qonşu dövlətlərimiz olan Rusiya və İran olacaq. Ekspertlər hesab edirlər ki, Amerikanın tarixinin ən ağır böhranını yaşaması ilk növbədə Rusiyanı, sonra isə İranı ayaqda saxlamağa dolayısı ilə xidmət edir. Onlar proseslərin bu şəkildə davamının ABŞ-ın təsir dairəsində olan dövlətlər üçün də ciddi təhlükə olduğunu vurğulayırlar. Belə ki, Rusiyanın bu ölkələrdə çevrilişlər, yaxud seçkilərə təsir yolu ilə özünə yaxın şəxsləri iqtidara gətirməklə bu dövlətləri öz təsir dairəsinə keçirə biləcəyi qeyd olunur.

Artıq şimal qonşumuzun bunun üçün hərəkəyə keçdiyi bildirilir. Amerikanın daxilindəki problemlərini qısa müddətdə yoluna qoymazsa, onun dünya hegemonluğu ciddi zərbə alacağını təsəvvür etməmək mümkün deyil.

Lakin **politoloq Elxan Şahinoğlu** Amerikanın qüdrətinin azalacağına inanmır: "Donald Trampın siyasəti Amerikanın dostlarını itirilməsinə səbəb ola bilər. Amerikanın dünyadakı gücü həm də ona bel bağlayan ölkələrin sayından asılıdır. Ancaq əgər Tramp "Meksika ilə divar tikəcəm", "Fələstin dövlətinin yaradılmasının əleyhinəyəm" və "Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsini alqışlayıram" kimi açıqlamalar verirsə, bu Amerikanın dostlarının sayını azaldacaq. Bundan isə Amerikanın Rusiya, İran və Çin kimi rəqibləri istifadə etməyə çalışacaqlar. Doğrudur, Tramp Böyük Britaniya, İsrail və Yaponiya ilə ittifaqa önəm verir, ancaq bu ölkələrdəki rəsmilər və ictimai rəy belə Ağ Evin yeni sahibinə ehtiyatla yanaşır. Çünki Trampdan nə istəsən gözləmək olar. Bir gün Tramp müttəfiq adlandırdığı dövlətlərə də hansısa ultimatum irəli sürə bilər. Məsələn, Yaponiyadan tələb ediblər ki, Amerikanın bu ölkədəki hərbi bazalarına daha çox pul ayırsınlar. Halbuki, Yaponiya öz üzərinə düşən maliyyələşməni həyata keçirir. Amerikanın dostları azala bilər, ancaq qüdrəti azalmayacaq. Amerikanın dünyanın müxtəlif məntəqələrində böyüklü-kiçikli minlərlə hərbi bazası var. Bu - böyük gücdür və onunla hamı hesablaşır. Tramp bu bazaların sayını azaltmağı düşünmür, tam əksinə, müdafiəyə daha çox maliyyə ayıracağını vəd edib. Onun əsas rəqibi Rusiyanın ölkə xaricində barmaqla sayılacaq qədər hərbi bazası var. Yəni Rusiya və ya Çin Amerika ilə bütün hallarda ayaqlaşa bilməyəcək. Moskva və Pekinin hazırda əsas məqsədi Amerikanın dünyanın supergüc statusunu azaltmaq, birqütblü dünyadan çoxqütblü dünyaya keçidi sürətləndirməkdir. Bəli, birqütblü dünya sabit və sakit həyat şərait yaratmır, Avrasiya bölgəsində savaşlar, terror beynəlxalq aləmə böyük təhlükələr yaradır. Ancaq kim zəmanət verər ki, Rusiya və Çinin iştirakı ilə qurulması planlaşdırılan çoxqütblü dünya beynəlxalq aləmə sakitlik gətirəcək. Rusiya Gürcüstanı, Ukraynanı parçalayıb, müttəfiqi Qazaxıstan və Belarusu belə zaman-zaman üstüörtülü hədələyir. Çünki Rusiyaya müttəfiq deyil, Ermənistan kimi vassallar lazımdır. Ona görə də Amerikadan nə qədər narazılıq olsa da, hər halda Rusiyanın hegemonluğundansa, Vaşinqtonun yanlışları ilə birgə, yürütdüyü siyasət keçərlidir".



**Politoloq Tramp Administrasiyasının da Cənubi Qafqaza maraq göstərməyəcəyini düşünür:** "Bunu zənn etmirəm. Barak Obama da 8 illik prezidentlik dövründə bizim bölgəni tam unutmuşdu. Ancaq Vaşinqton Rusiyanın ətrafında yaratmaq istədiyi hegemonluğu da qəbul etməyəcək. Təsadüfi deyil ki, Amerika cəmi bir il ərzində Rusiyanın ətrafında - Baltik ölkələrdə, Polşada, Rumıniyada kiçik hərbi qruplaşmalar yerləşdirib, Bolqarıstan da planda var. İstisna etmirəm ki, Amerika bir gün qonşu Gürcüstanda da hərbi baza yaradacaq. Onsuz da indinin özündə Amerikanın Gürcüstanda hərbi instrukturları az deyil. Gürcüstanın NATO-ya üzvlüyünü Vaşinqton illərdir dəstəkləyir. Rusiya Gürcüstanın torpaqlarını işğal edəndə, Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıyanda, oralarda hərbi qruplaşmalarını yerləşdirəndə beynəlxalq aləmdən ciddi təpki almadı. Bundan sonra Rusiya daha çox həvəslənərək qardaş adlandırdığı Ukraynanı parçaladı, Krımı ilhaq etdi, Donbass separatçılarını canlı qüvvə və hərbi texnika ilə dəstəklədi. Ancaq Moskva Krımı ilhaq etməklə qırmızı çizgiləri aşdı. Bununla da Moskva Qərblə arasındakı bütün körpüləri yandırdı. Donald Tramp beynəlxalq terrorçulara qarşı mübarizədə Rusiya ilə əməkdaşlıq planlarını nəzərdən keçirsə də, ümumilikdə Amerika isteblişmenti, Konqresi və beyin mərkəzləri Rusiyanı zəiflətmək planlarından əl çəkməyəcəklər. Rusiya ilə tamamən dostlaşmaq Trampın imkanı xaricindədir. Tramp bu mənada Rusiya əleyhinə olan Amerika siyasi elitası ilə hesablaşmalıdır. Təsadüfi deyil ki, Tramp bugünlərdə deyib ki, keçmiş prezident Barak Obama Rusiyanın Krımın ilhaqına adekvat reaksiya verə bilmədi. Tramp bununla demək istəyir ki, o Rusiya ilə münasibətlərdə Krımın ilhaqı faktını unutmayacaq".

**E.Şahinoğlu Tramp dönəmindəki Amerika-Rusiya münasibətlərinə də toxundu:** "Donald Tramp çox şey istəyə bilər. Ancaq Amerikada bir nəfər, hətta prezident olsa belə, ölkəsinin siyasətini tamamən müəyyənləşdirə bilməz. Amerika demokratik ölkədir, bir-birlərini tənzimləyən qüvvələr nisbəti var. Tramp Amerikanı müşavirləri ilə birgə idarə edir, müşavirlərin isə dünyadakı proseslərə fərqli baxışları var. Məsələn, Amerikanın yeni müdafiə naziri Rusiya ilə münasibətlərin normallaşmasının tərəfdarı deyil, Moskvanın siyasətini dünya üçün təhlükə kimi görür. Bunun üstünə Amerikadakı müxtəlif siyasi institutları, mühafizəkar Konqresi və Ağ Evə müxtəlif hesabatlar hazırlayan onlarla "beyin mərkəzi"ni gəlmək lazımdır ki, onlar da prezidentin xarici siyasətdəki yekun qərarına təsir edirlər".

❑ **Cavanşir ABBASLI**

---

# Bayraqları bayraq edən... onu qoruyanlardır



**Xalid KAZIMLI**

**Son 25 ildə milli bayrağımızla bağlı qalmaqallar çox olub: onu bilməzlikdən və qəsdən səhv tutublar, bilərəkdən tərsinə asıblar, açıq verirmiş kimi, yaşıl zolağını yuxarıya keçirərək göstəriblər və s.**

Ermənistan heç, zaman-zaman bu ölkədə bayrağımıza qarşı düşmənçilik pik həddə çatır.

Ancaq bir dəfə bizə qardaş ölkədə də məsuliyyətsiz məmurlar bayrağımızı lazım olmayan yerlərə atmışdılar.

Ya dost, ya düşmən, fərqi yoxdur, bayrağımıza qarşı edilən hörmətsizlik, saygısızlıq, düşmənçilik ölkəmizdə həmişə hiddət doğurur.

Bu, üstündən keçiləsi bir şey deyil. Heç kəs deməsin ki, rəngli əski parçasıdır, ora-bura atılanda, tərsinə tutulanda nə olacaq ki...

Bayrağımız mövcudluğumuzun simvoludur, onu ucalıqda görmək istəməyən bizi, hamımızı, hər birimizi ucalıqda görmək istəmir.

Bayrağımızı ayaqlar altına atan bizi, millətimizi ayaqlar altında görmək istəyir.

Üçrənglimizi yandıran bizi, evimizi, yurdumuzu yandırmaq istəyir. Necə ki Ermənistan dövlətinin hərbi qüvvələri bunu çox ediblər, bayraqdan qabaq kəndlərimizi, evlərimizi, insanlarımızı yandırıblar.

Bayrağımıza qarşı yol verilən hər bir hərəkət özündə nifrət, düşmənçilik səciyyəsi daşıyır və bu, millətimizə, dövlətimizə qarşı məkrli beyinlərdə dolaşan yaramaz fikirləri təzahür etdirir.

Ona görə də ölkə insanları, vətənpərvərlər bu məsələdə həssasdırlar. Yeri gəlmişkən, o vaxt Ramil Səfərov Macarıstanda Qurgen adlı erməni zabitinə məhz bayrağımızı təhqir etdiyi üçün əl qaldırmışdı.

Təəssüf ki, bəzən bu xüsusda biganəlik göstərən, hətta bunu lağlağı mövzusuna çevirənlərlə yanaşı, bayraq sevdasını ifrata çatdıran, ura-patriotizmə varanlar da boy göstərir. Bunların hər ikisi qütblərdir və yanlışdır.

Kimsə başqa bir vətənpərvər hansısa tədbirdə tələskənlikdən, ya diqqətsizlikdən bayrağımızı tərsinə tutubsa, dərhal onu söyüb-yamanlamağın yeri yoxdur, bunun təsadüfən, bilməzlikdən baş verdiyini, özündə qəsd elementləri daşımadığını bilmək çətin deyil.

Bir də var, milli bayrağımızın asılmasında, görünüşündə qəsdən təhrifə yol verələr, özlərindən yeni "bayraq" icad edələr. Bax, bu düşmənçilikdir.

Ən pisi odur ki, bayrağımızla bağlı bu kimi "təsadüfi təhrifetmələr", "yanlıştutmalar" nədənsə ən çox İranda baş verir. Axırıncı dəfə də eyni hadisə İranın Kirmanşah şəhərində olub.

İdmançılarımız Kirmanşahda keçirilən güləş yarışmasında diqqət ediblər ki, iştirakçı dövlətlərin heç birinin bayrağıyla bağlı hər hansı bir yanlışlıq olmadığı halda Azərbaycan bayrağı kimi təqdim olunan bayraq xeyli təhrif olunmuş vəziyyətdədir - rəng zolaqları başqa cür dizayn edilib, ay-ulduzun yeri dəyişdirilib və s.

Güləş yığmamızın məşqçiləri (onlar olimpiada arenalarında vaxtaşırı olaraq milli bayrağımızı çiyinlərinə salıb qələbə sevinci nümayiş etdirirlər) məsələyə müdaxilə ediblər və qaldıqları oteldən gerçək milli bayrağımızı gətirdiblər. Məsələ həll olunub.

Ancaq bunun qəsdən edildiyi gün kimi ortadadır. O bayraq xüsusi diqqətlə tikilib, hazırlanıb. Qəsdən edilməsəydi, bayrağı sifarişini, eskizini verənlər bir neçə saniyənin içində internet resurslarından Azərbaycanın milli bayrağının gerçək görünüşünü tapa bilərdilər. Bundan daha yaxşısı isə bayrağımızın hazır variantını, öz ölkəmizdə istehsal edilmiş nüsxəsini əldə etmək idi.

Bəs bu davranış nə vaxta qədər davam edəcək? Necə olur, bütün dünya Azərbaycanı dövlət kimi tanıyır, onun atributlarına hörmət qoyur, yalnız İran fərqli mövqe tutur? Xroniki olaraq ya hansısa İran məmuru bizə qarşı ərazi iddiası irəli sürür, ya kimsə daxili işlərimizə qarışmaq xətti tutur, ya da bu cür, bayrağımıza qarşı "təsadüfi yanlışlıqlar" baş verir.

**Rəsmi Tehranın müstəqil Azərbaycan dövlətinin varlığını həzm edə bilməməsi, bu dövlətin mövcudluğunu öz ərazisindəki Azərbaycan ostanlarına təhlükə sayması çoxdan bəllidir. Ancaq hər şeyin də bir ədəbi var - qonşu dövlətlər dinc, yanaşı yaşamağı və bir-birinin ərazi bütövlüyünə, milli atributlarına saygı ilə yanaşmağı öyrənməlidirlər.**

**Əlimizə keçən yeni kitabların hamısını eyni vaxtda oxuya bilmirik; bəzisini elə alan kimi gözdən keçiririk, bəzisi də köhnə kitablara qarışır və aylarla unudulur. Moskvada yaşayan tanınmış jurnalist Rafael Hüseynovun 2015 -ci ilin sonlarında Bakıda nəşr olunmuş “Глядя из Москвы" (Moskvadan baxarkən) kitabını ötən il alsam da, yazılarım çox olduğundan, yalnız bu yaxınlarda oxuya bildim.**

**Sabir RÜSTƏMXANLI**



# Moskvadan özünə də bax...

## “Rafael Hüseynov köhnə sovet rejiminin, rus məktəblərinin, komsomol, partiya namenklaturasının bir çox yetirmələrinə xas olan bir xəstəlikdən xilas ola bilməyib”

Öncədən deyim ki, Rafael Hüseynov çox təcrübəli, məlumatlı, Rusiyada yaxşı tanınan, nüfuzlu jurnalistlərdəndir. Rusiya Jurnalistlər birliyinin katibidir. Vaxtilə “Molodej Azerbaydjana” qəzetinin redaktoru olub. Sonra Moskvanın bir çox nüfuzlu mətbuat orqanlarında yüksək vəzifələrdə çalışıb. Sov. İKP-nin milli siyasət məsələləri üzrə məsləhətçisi olub. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının Rusiyadakı səfirinin birinci müavini vəzifəsini daşıyıb. Bu siyahını bir az da uzatmaq olar. Tanınmış jurnalist oxucunu darıxmağa qoymur, konkret faktlar, araşdırmalar əsasında danışır, təhlilləri ağıllı və obyektivdir. Cavanlıq illərimizdən tanıdığıma görə yazılarını həmişə maraqla izləmiş, əyalətçilikdən uzaq, qlobal düşüncə tərzinə, siyasi prosesləri diqqətlə izləyərək dəqiq mülahizələr yürütdüyünə görə ona xüsusi sayqıyla yanaşmışam. Bu baxımdan adı çəkilən sonuncu əsəri də istisna deyil və müəllifin yaradıcılıq uğuru sayıla bilər. Sırf peşəkarlıq və jurnalist araşdırmaları baxımından yanaşsam kitabın məziyyətləri haqqında bir xeyli danışa və ya yaza bilərəm.

Lakin təəssüf ki, bu kitabının, şəxsən məni incidən, narahat edən elə bir cəhəti də var ki, onun üstündən keçə bilmirəm. Bu, Rafael Hüseynovun yaxın tariximizə münasibəti və vətəndaş mövqeyi ilə bağlıdır. Düzdür o, kitabda özünü bir neçə dəfə, görünür xüsusi olaraq, Rusiya jurnalisti kimi təqdim edir. Ancaq hər halda azərbaycanlılıqdan çıxmayıb, öz dediyi kimi, valideyinlərinin məzarı burdadır, uşaqları burda doğulub, burda qohumları yaşayır. Hətta Azərbaycana bağlılığı olmasa belə, ədalət hissini və jurnalist məsuliyyətini unutmaq olmaz.

Annotasiyada bildirilir ki, kitabda müəllifin əsasən son ildə yazdığı məqalələri, müsahibələri toplanıb. Bir ildə müəllif, doğrudan da, yorulmadan və çox səmərəli çalışıb. Kitabda çağdaş dünyanın geniş mənzərəsi var. Rafael Hüseynov Moskvadan baxanda Amerikada, Avropada baş verən hadisələri görür, onu İŞİD, Ərəb baharı, Ukrayna-Rusiya münasibətləri, Krım türklərinin taleyi düşündürür, keçmişə də ekskursiya edir, Stalin, Hitler, İkinci Dünya müharibəsi, Kreml ve Rusiya oliqraxları da diqqət mərkəzindədir. Azərbaycan da unudulmamışdır. Son müharibədə “Hitler tərəfində döyüşən” 40 min azərbaycanlı *(bu rəqəm mənə şübhəli görünür)*, Düdənginskinin ölümü, Heydər Əliyevin siyasi və ailə həyatı ilə bağlı maraqlı epizodlar, Azərbaycanın köhnə partiya nomenklaturası haqqında xiffət dolu xatirələr və s. Hamısını saymaq çətindir. Dünya “Rusiya jurnalistinin” ovcundadır. O hər şeyi görür...

**Təkcə Dağlıq Qarabağdan başqa.**

Deyə bilərlər jurnalist azad insandır; nədən yazıb, nədən yazmamaq onun şəxsi işidir. Buna sözüm yox! Ancaq ola bilməz ki, əslən Qarabağdan olan bir qələm sahibi müxtəlif xalqlarının taleyi, postsovet dönəminin münaqişələri ilə bağlı bu qədər yazıb-poza, iri bir kitab hazırlaya orda Vətəninin bu boyda problemini xatırlatmağa bircə cümləsinə qıymaya... Düzdür, kitabda Qarabağ münaqişəsinin başlandığı illər haqqında bir- iki cümlə var və mənim əsas məqsədim də o cümlələrin həqiqətdən nə qədər uzaq olduğunu göstərməkdir. 35-ci səhifədə oxuyuruq: “Vətəndaşların daha fəal hissəsinin dəstəklədiyi inqilablar bir vaxt Gürcüstanda və Azərbaycanda Xalq Cəbhələrini hakimiyyətə gətirdi. Nəticə məlumdur: hər iki tərəf öz ərazilərinin xeyli hissəsini itirdi. Düşünürəm ki, növbəti gətirəcəyim misal Bakıda çoxlarının xoşuna gəlməyəcək. Bizim erməni qonşular öz ölkələrində inqilaba qalxmadılar, buna görə də, Ermənistanın indiki durumunu təhlükəsiz saymaq çətin olsa da, hər halda ölkələrinin torpaq bütünlüyünü qorudular”.

Hörmətli Rafael Hüseynovun məntiqi Rekordlar kitabına düşməlidir. Sanki Qarabağda 14 rayonu itirməyimizin yalniz bir səbəbi var, o da Azərbaycanda Xalq Cəbhəsinin yaradılması və inqilabdır. Bu, 1990-cı ilin yanvarında SSRİ silahlı qüvvələrinin vəhşicəsinə Bakıya yeridilməsini əsaslandırmağa çalışan sovet rəhbərlərinin fikirləriylə üst- üstə düşən mövqedir. Qələm dostumuz nəzərə almır ki, inqilab öncə İrəvanın Teatr meydanında, Xankəndində başlanmışdı. Moskvadan qopmaq şüarlarını bizdən öncə Ermənistan səsləndirmiş və beynəlxalq dəstək qazanmağa çalışmışdı. Bizim ərazimizi qərarla öz ərazisi elan edən, 200 min azərbaycanlını öz tarixi yurdlarından qovan “bizim qonşular”, yəni Ermənistan idi. Azərbaycan yalnız cavab vermişdi. Nəhayət, Bakı mitinqlərinə İnqilab demək olsa, bu inqilab Xalq Cəbhəsi yaranmazdan il yarım əvvəl başlanmışdı. Xalq Cəbhəsi Moskvanın diqtəsilə oturub-duran və ölkəni qonşuların işğalından qoruya bilməyən rəhbərlərin vecsiz və dağıdıcı siyasətinə etiraz olaraq yaranmışdı. Torpaq itirməkinqilabın nəticəsi deyildi, inqilab- torpaqlarımızı itirmək qorxusunun və mərkəzi hakimiyyətin ermənipərəst siyasətinin nəticəsiydi. “Dinc qonşularımızın” işğalçılıq faktını bu yolla pərdələmək erməni jurnalistikasından çox da fərqlənən yol deyil.

Belə görünür ki, R.Hüseynov köhnə sovet rejiminin, rus məktəblərinin, komsomol, partiya namenklaturasının bir çox yetirmələrinə xas olan bir xəstəlikdən xilas ola bilməmişdir. Bu da Moskvadan qopmaq, müstəqilləşmək istiqamətində atılmış bütün addımları qara rəngdə görmək, ötən əsrin 90-cı illərində baş vermiş böyük tarixi hadisələrin ancaq bir üzünə baxmaq və SSRİ-nin dağılma prosesini faciə kimi qiymətləndirərək bunun əsas günahını o vaxt bütün respublikaları təbii şəkildə bürümüş Xalq hərəkatlarının boynuna yıxmaqdır.

Başqa bir xəstəlik də xalqların öz milli idealları və demokratiya uğrunda mübarizəsini ABŞ və Qərbin “demokratikləşmə”, “ərəb baharı” adı altında bəzi müsəlman ölkələrində apardığı işğal və dağıdıcılıq prosesi ilə eyniləşdirməkdir.

1988-ci ildə Azərbaycanda hərəkat yenidənqurma və söz azadlığı şüarlarıyla başlanmışdı, yalnız Moskvanın Azərbaycan torpaqlarının işğalıyla nəticələnən siyasəti ortaya çıxanda şüarlar dəyişildi və SSRİ-dən qopmaqdan başqa çarənin bulunmadığı fikri meydana çıxdı, milli hərəkat başlandı. Moskva respublika rəhbərliyinə qəsdən bu işdə ona yardım edə biləcək zəif adamları gətirmişdi. Bəli, 1988-ci ildə Azərbaycanda hakimiyyətdə Heydər Əliyev və ya başqa bir iradəli və təcrübəli adam olsa, ola bilsin ki, hadisələr fərqli ssenari ilə inkişaf edərdi.

Kitabda Rafael Hüseynov bir neçə dəfə AXC-nin hakimiyyət illərini, yəni özünün Moskvada müstəqil Azərbaycanın səfirliyində çalışdığı illəri xatırladır. Təəssüf ki, onun bu xatırlamaları sosializm sisteminin həsrətini çəkən və o sistemin ərköyün böyütdüyü adamların ümumi və yanlış yanaşmalarından heç nə ilə fərqlənmir. Səh.99-da yazır: “Təmizlənmə əməliyyatını Azərbaycanda Xalq Cəbhəsinin qısa hakimiyyəti dövründə də qeyri-formal şəkildə həyata keçirməyə cəhd etdilər... Partiya, sovet, komsomol, təsərrüfat kadrlarına etimadsızlıq ifadə edilirdi. ...Azərbaycanın ictimai və mədəni həyatı üçün xüsusi sərt bir təmizlənmə əməliyyatı hazırlanırdı. Konservatoriyada skripka, violençel, "yabançı incəsənətin" təsiri altında olan hər şeyin ləğv edilməsi təklif edilirdi. Əvəzində xalq alətləri sinifləri üstünlük qazanırdı. Balet ümumiyyətlə bir sənət növü kimi qəbul edilmirdi. Bakı küçələrində yalın ayaqlarına çəkələk geymiş, pinti saqqallı, qaramat iranlılar getdikcə daha çox gözə dəyirdilər... Geyim stilinə, özəlliklə qadın paltarlarına, donların və yubkaların kəsiklərinə qadağa qoyuldu..."

Müəllif özü etiraf edir ki, Xalq cəbhəsinin başçıları savadlı adamlar idilər və heç birindən təmizlənməni müdafiə edən bir söz eşitməmişdim. Bir halda ki, belədir, onda kimlərinsə “cəhd etməsi, təklif etməsi” ittiham üçün əsas ola bilməz. Olmayan bir şeyi yazmaqla və bunu Xalq Hərəkatına zorla yapışdırmaqla bu hərəkatı gözdən salmaq istəyi haradan qaynaqlanır və bunu bir azərbaycanlı jurnalist özünə necə rəva görür? AXC-nin bir illik hakimiyyəti dövründə, Şərqi Avropa və, Baltik dövlətlərində olduğuna bənzər bir təmizlənmə əməliyyatı barədə rəsmi bir göstəriş olmayıbsa, rəhbərlik bunu qəbul etməyibsə onda bu barədə yazmaqla müəllif nə niyyət güdür?

O ki qaldı, “iranlı” deyib qaraladığı adamlara, onların çoxu bizim Güneyli qardaşlarımız idi, uzun ayrılıqdan sonra xoşbəxt bir gediş-gəliş başlanmışdı və kimin hansı ayaqqabı ilə gəlməsi milləti az narahat edərdi.

Ən əsası, Qarabağda savaş gedirdi, hər gün cəbhələrdən şəhidlər gəlirdi, xalq mərkəzi hakimiyyətinin dəhşətli bir xəyanətiylə üz-üzəydi və millət torpağını qorumaq haqqında düşünürdü, hansısa musiqi aləti haqqında yox...

Buna baxmayaraq nə Konservatoriya dağıldı, nə skripka sinifləri ləğv edildi. Tək-tək cahil adamların küçə söhbətlərini hakimiyyətin mövqeyi kimi qələmə vermək heç bir vətəndaşlıq və ədalət prinsipinə sığmır, müəllifin yaxın tariximizə qərəzli, məsləhətçilərinin yanlış mövqeyindən yanaşdığını göstərir.

AXC-nin bir illik hakimiyyəti ciddi təhlil olunmalıdir. Əlbəttə, ciddi səhvlər də olub. Mən şəxsən təcrübəsiz adamların hakimiyyətə və iş başına gətirilməsinin tərəfdarı olmamışam, bu fikirdəydim ki, AXC müxalifətdə qalıb hakimiyyətdəkiləri “işlətsə” daha yaxşı olar. Lakin Xocalı faciəsi və bir sıra digər hadisələr Moskvayanlı iqtidarın sonu oldu və milli qüvvələrin hakimiyyəti ələ almaqdan başqa yolu qalmadı. Müəllif nəticəni müzakirə edir və günahlandırır. Səbəbi dilə gətirmir və bu hadisələrdə Moskva yardımlı erməni işğalını görməzdən gəlir.

Kitabda açıq-aşkar bir rus-sovet, KĞB - komsomol xiffəti, atalarının adına “oviç” qoşmaqla guya özlərinin yüksək zümrənin adamı kimi göstərməyə çalışan milli korazehinlərin “bəlkə də qaytardılar” ovqatı hiss olunur.

Müəllif yalnız bizim yox, digər xalqların da milli haqları uğrunda mübarizəsinə açıq-aşkar bir istehzayla yanaşır. Məsələn, bütün ömrünü Krım türklərinin haqlarının bərpası uğrunda mübarizəyə sərf etmiş və buna görə uzun illər Rusiya zindanlarında yatmış əsil xalq qəhrəmanı Mustafa Cəmiloğlu Rafael bəyə sadəlövh bir adam kimi görünür, onun BMT kürsüsündən etdiyi parlaq çıxış rus mövqeyindən təftiş edilir, hətta onun Kırımın köhnə türk adlarını bərpa etmək kimi təbii tələbi etinasızlıqla bu sadəlövhlüyün təsdiqi kimi misal gətirilir.

**Bəli, adam Rusiya jurnalisti olanda və Moskvadan baxanda belə görür...**

Ancaq bir anlığa bizim rus təhsili almış və Azərbaycandan kənarda yaşayan Rafael bəy kimi qələm sahiblərini onların erməni həmkarları ilə müqayisə edək. Onların hətta Ermənistanda doğulmayan və Qarabağın üzünü görməyənləri də, yeri gəldi-gəlmədi, öz əsassız iddialarını ortaya atıb, Azərbaycanı ittiham etməyə qalxırlar. Bizimkilər isə əllərində hər cür dəlil-sübut ola-ola, elə yazırlar ki, sanki köhnə sovet təsərrüfat sisteminin dağılmasının da, Qarabağın Ermənistan tərəfindən işğalının da, 1 milyon vətəndaşımızın torpaqlarından didərgin düşməsinin də, Xocalı soyqırımının da günahkarı biz özümüzük. Xocalı soyqırımından 25 il keçir. Dünya və Rusiya Qarabağ probleminin həllinə imkan vermir. Belə bir durumda işğal altında olan bir rayonda doğulmuş azərbaycanlı jurnalistin öz xalqının ən böyük probleminə bu qədər etinasız olması, istər-istəməz, mənə böyük sənətkarımız Nəsibə Zeynalovanın sözünü xatırladır: Hamı gedir quş gətirir, bizimki bayquş gətirir...

**Moskvadan baxın, nə olar! Ancaq hərdən bir özünüzə də baxın!..**

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017

# Türkiyə və Almaniya arasında "casus imam" qalmaqalı

## 6 din xadimi barəsində casusluq ittihamı irəli sürülməsi, 4 türk imamın evində axtarış aparılması ikitərəfli münasibətlərə təsir edib...

**Almaniyada türk imamların evlərində axtarış aparılması Berlin və Ankara arasında qalmaqala səbəb olub. Federal Prokurorluq bəyan edib ki, Şimali Ren-Vestfalya və Rheinland-Pfalz əyalətlərində fəaliyyət göstərən 4 məscid imamının evində casusluq iddiaları ilə əlaqəli axtarış aparılıb. Axtarış federal məhkəmə qərarı ilə baş tutub və casusluqla bağlı dəlillərin toplanması məqsədilə olub.**

Rəsmi iddiaya əsasən, imamlar Fətullah Gülən təşkilatı haqqında gizli məlumat toplayıb və bu məlumatları Türkiyənin Köln şəhərindəki Baş Konsulluğuna ötürüb. Qeyd edək ki, imamların casusluqda ittiham olunması məsələsi Almaniyanın baş naziri Angela Merkelin fevralın 2-də Ankaraya səfəri zamanı gündəmə gəlib. Türkiyə mediasının xəbərinə görə, Merkel mətbuat konfransında deyib ki, Diyanət İşləri Türk-İslam Birliyi qurumunda çalışan imamların bəzi şəxslər haqqında məlumat toplaması demokratik sistemdə Alman hüquq dövlətinə zidd olmamalıdır.



Haqqında casusluq ittihamı olan 6 imam fevralın 10-da Türkiyəyə geri çağırılaraq başqa işlərə təyin olunub. Türkiyə Diyanət İşləri Başqanlığı geri çağırılan 6 imamdan 4-nün evində axtarış aparıldığını açıqlayıb. Bu imamların yerinə artıq yeni təyinatlar verilib. Axtarış aparılan evlər təşkilata məxsusdur və yeni imamlar o evlərə yerləşiblər.

Maraqlıdır ki, axtarışlar Baş Nazir Binəli Yıldırım və xarici işlər naziri Mövlud Çavuşoğlunun Almaniyaya - Münhen təhlükəsizlik Konfransına getməyə hazırlaşdığı bir zamanda baş tutub. Bundan əvvəl isə Milli İstihbarat (Kəşfiyyat) Təşkilatının sədri Hakan Fidan Almaniya Federal Kəşfiyyat Xidməti (BND) tərəfindən bu ölkəyə dəvət edilmişdi. Ancaq Fidanın səfərinin bu iddialarla bağlı olub olmadığı bilinmir. Diyanət İşləri Türk İslam Birliyi təşkilatı isə imamların casusluq etməsi iddialarını təkzib edir.

Türkiyə Diyanət İşləri başqanı professor Mehmet Görmez isə Almaniya mediasına verdiyi açıqlamada casusluq iddialarını təkzib edib. O deyib ki, imamların və dini müşavirlik əməkdaşlarının Türkiyə vətəndaşlarını, müsəlmanları FETÖ və İŞİD kimi təşkilatların təhlükəli fikirlərinə qarşı, onların tələsinə düşməmək üçün tövsiyə və xəbərdarlıq etməsi, bu yöndəki fəaliyyətləri casusluq deyil. M.Görmez deyib ki, heç bir din xadimi öz camaatından olan biri haqda olan özəl məlumatları başqalarına verə bilməz.

Qeyd edək ki, Almaniya ədliyyə naziri Heiko Maas bildirib ki, Türkiyə dövlətinin Diyanət İşləri Türk-İslam Birliyi (DİTİB) üzərində böyük təsiri var. Nazir bu təşkilatı Ankaradan ayrılmağa çağırıb. Alman nazirin bu ifadəsi Türkiyədə ciddi narazılıqla qarşılanıb. Ədliyyə naziri Bəkir Bozdağ yaydığı yazılı açıqlamada Almaniya nazirinin açıqlaması və imamlara qarşı casusluq ittihamının iki ölkə arasında dostluq münasibətlərinə ciddi zərər vuracağı qeyd olunub. Eyni zamanda o, axtarışların əsassız olduğunu qeyd edib.

DİTİB Türkiyə Diyanətinə bağlı olan Avropada fəaliyyət göstərən və əsasən türkiyəli miqrantlar və müsəlmanlara dini xidmətlər təşkil edən qurumdur. Ədliyyə naziri bildirib ki, imamlara qarşı casus ittihamı və axtarışları FETÖ-nün iftiraları ilə başladılıb. Ancaq hələlik bu iddia almanlar tərəfindən təsdiqini tapmayıb.

Xatırladaq ki, F.Gülən camaatının ən güclü olduğu ölkələrdən biri də Almaniyadır. Bu ölkədə çoxlu sayda Türkiyədən gəlmiş miqrantların olması səbəbindən uzun illər Camaat bu ölkədə təşkilatlana bilib. Bundan başqa, Türkiyədən qaçan bir sıra "Camaat" üzvü də Almaniyaya sığınıb. Bunların arasında ən məşhuru keçmiş prokurorlar Zəkəriyyə Öz və Cəlal Kara da var. Hər iki şəxs uzun illər Türkiyədə səs-küylü cinayət işlərini idarə edib, ancaq daha sonra barələrində istintaq başladıqdan sonra Türkiyəni gizli şəkildə tərk edərək Almaniyaya sığınıblar.

Qeyd edək ki, Almaniya son 100 ildə Türkiyənin Avropada ən yaxın tərəfdaşlarından biri olub. 1950-ci illərdə iki ölkə hökumətləri arasında əldə olunan anlaşmaya əsasən Türkiyədən Almaniya fabriklərində çalışmaq üçün əvvəlcə mövsümi, daha sonra isə uzun müddətli işçilər alınıb. Hazırkı statistikaya əsasən Almaniyada 3,5 milyon (ümumilikdə 4,5 milyon müsəlman - K.R.) türk əsilli insan yaşayır. Onların bir hissəsi Almaniya vətəndaşıdır və artıq 3-cü nəsil Almaniyada yaşamış ailələrin övladlarıdır. Bu səbəbdən də Almaniyada böyük bir Türkiyə diasporu mövcuddur.

Statistik məlumatlara görə, məhz Almaniyada yaşayan türklərin böyük qismi assimilyasiya olmur, əksinə, dini və milli dəyərlərə daha çox bağlanır. Bu səbəbdən də Almaniyada dini fəaliyyətlər xüsusən də türklər arasında xeyli dərəcədə aktivdir. Hazırda Almaniyada mövcud olan 2750 məscidin böyük qismini məhz türk məscidləri təşkil edir. Bu məscidlərdə mühacir və miqrant din xadimləri ilə yanaşı, Türkiyədən göndərilən din xidmətçiləri də çalışır.

Hələlik Almaniyanın bu iddiasının nə qədər doğru olub-olmadığını demək çətindir. Mümkündür ki, Mehmet Görmezin də ifadə etdiyi kimi imamlar Almaniyadakı məscidlərdə FETÖ əleyhinə, Camaata qarşı təbliğatlar aparıb. Eyni zamanda Camaata bağlı və ya yaxın olan şəxslərlə bağlı xəbərdarlıq edib, onlar haqqında bilgi toplayıb. Çünki F.Gülən camaatı bir dini qrup olduğu üçün məscidlər və din xadimləri arasında "Camaat" üzvlərinin olması mümkündür. Yəni ümumilikdə Türkiyədə "Camaat" ab-havasının Almaniyadakı miqrantlara sirayət etməsindən söhbət gedə bilər. Görünür, bu durum türklər üçün normal olsa da, almanlar üçün uyğun olmayıb. Digər tərəfdən, Bozdağın da ifadə etdiyi kimi, qarşı tərəfin iddiaları da rol oynaya bilər.

**Ancaq istənilən halda bu olay onsuz da kövrək olan Ankara-Berlin münasibətlərini daha da zədələyir. Əgər Alman istintaqı ortaya hansısa dəlillər çıxara bilsə, bu hadisə türk dini fəaliyyətlərinə qarşı ciddi ittihama çevrilə bilər.**

❑ Kənan RÖVŞƏNOĞLU



# Vitse-spiker Bakı görüşünü şərh etdi

## **Ziyafət Əsgərov:** "Bu dövlətlərin baş qərargah rəislərinin paytaxtımızda görüşü bizə əlavə nüfuz gətirəcək"

**"ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Birləşmiş Komitəsinin sədri Cozef Danford və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeriy Qerasimovun Bakıda görüşməsi Azərbaycan prezidenti İlham Əliyevin apardığı balanslı siyasətlə bağlıdır".**

**Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov** parlamentdə jurnalistlərə açıqlamasında belə deyib. I vitse-spiker qeyd edib ki, bu münasibətlər kontekstindən çıxış edəndə Bakının görüş yeri kimi seçilməsi təbiidir: "Eyni zamanda Azərbaycan bir sıra regional və dünya əhəmiyyətli layihələrin müəllifidir. Bura Bakı-Tiflis-Qars dəmir yolunun, neft-qaz kəmərlərinin çəkilməsini aid etmək olar. Bu layihələrdə ABŞ Azərbaycana hər zaman dəstək olub. Bundan başqa Azərbaycan Cənubi Qafqazın ən güclü, stabil və sabit dövlətidir. Bu meyarlardan çıxış edən ABŞ və Rusiya belə bir görüşün Bakıda keçirilməsinə qərar veriblər". Z.Əsgərov deyib ki, generalların Bakı görüşü Azərbaycana siyasi mənada çox böyük dividentlər gətirəcək. "Bu Azərbaycanın nüfuzu ilə bağlı olan məsələdir. Bu görüş Azərbaycan siyasi mənada çox böyük dividentlər gətirəcək. Bunu etiraf etmək lazımdır. ABŞ və Rusiya dünyanın böyük dövlətləridir. Eyni zamanda ATƏT-in Minsk Qrupunun həmsədrləridir. Bu dövlətlərin baş qərargah rəislərinin paytaxtımızda görüşü rəsmi Bakının artan nüfuzundan xəbər verir və bizə əlavə nüfuz gətirəcək". Birinci vitse-spiker qeyd edib ki, qərargah rəislərinin Bakı görüşündə Cənubi Qafqazdakı problemlər də müzakirə predmeti olub".

**Z.Əsgərov Xocalı soyqırımının ildönümü tədbirlərindən də bəhs edib. "Hər il olduğu kimi bu il də Azərbaycan Milli Məclisi dünya ölkələrinin parlamentinə Xocalı soyqırımı ilə bağlı müraciət edəcək"-deyə, bildirib. O əlavə edib ki, əvvəlki illərdə də Xocalı soyqırımı ilə bağlı dünya ölkələrinin parlamentlərinə müraciətlər edilib.** "Bildiyiniz kimi, Milli Məclis Xocalı soyqırımının 10, 15, 20 illiyi ilə bağlı qərarlar qəbul edib. Milli Məclis hər il Xocalı soyqırımı ilə bağlı bəyanat qəbul edir. Bu il də bu qərar qəbul olunacaq. Biz dünya dövlətlərinə müraciət edəcəyik".

"Azərbaycan prezidenti İlham Əliyevin penitensiar sistemlə bağlı sərəncamını sözün həqiqi mənasında inqilabi hesab edirəm". **Z.Əsgərov ölkə başçısının son sərəncamını şərh edərkən deyib. (Modern.az) Vitse-spiker bildirib ki, bu sərəncamdan sonra Cinayət Məcəlləsində azadlıqdan məhrumetməyə alternativ olan cəza növlərinin sayı artacaq**: "Bundan sonra çox sayda insan azadlıqdan məhrum edilmədən, cəzaları digər yüngül cəzalarla əvəz olunacaq. Sərəncamla cəza növü kimi ictimai işlərə cəlbetmə, cərimə və digər yüngül cəzalara üstünlük verilib. Bu isə Azərbaycanın apardığı humanist siyasətə cəza siyasətinin uyğunlaşdırılmasıdır. Yəni, cəza siyasətinin dövlət siyasətinə uyğunlaşdırılmasıdır".

**Birinci vitse-spiker sərəncamla yaradılacaq strukturlardan da danışıb:** "Sərəncamla bir sıra yeni strukturlar yaradılacaq. Probasiya sözünün mənası sınaq deməkdir. Bu əsasən ingilis-sakson hüquq sisteminə daxil olan ölkələrdə tətbiq olunur. Burada söhbət ondan gedir ki, şəxs hər hansı bir cinayət edirsə, onun cinayətinin xarakteri və ictimai təhlükəlilik dərəcəsinə görə, müəyyən olunacaq ki, o azadlıqdan məhrum etmə cəzası vermək olar yoxsa başqa cəza növü ilə əvəz etmək olar. Yəni, başqa cəzanı verəndə müddət qoyulacaq. Məsələn, ABŞ-da 5 ilə, digər ölkələrdə 3 ilə qədərdir. Yəni bu probasiya dövründə məhkumun özünün necə aparmasına baxılacaq".

❑ ELŞAD

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017

# Prezidentlərin oxşarları - gizli əməliyyatın təfərrüatı

## Ölkə başçılarının, transmilli korporasiya rəhbərlərinin, müxalifət liderlərinin bənzərlərinin tapılıb hazırlanması barədə sensasion bilgilər



**14 fevral 2017-ci il tarixində əksər dünya informasiya mərkəzləri eyni xəbəri öz mənşətlərinə çıxarırlar: "Avstriyada Adolf Hitlərə bənzər 25 yaşlı naməlum bir şəxs həbs edilib. Özünü Harold Hitler kimi təqdim edən bu şəxs, Braunau-am-İnn şəhərinə gələrək burdakı yerli sakinləri xeyli diksindirib. Hitlerin doğulduğu qədim evin qarşısında xəyala dalmağı, şəkil çəkdirməyi yerli polislərin diqqətindən yayınmayıb. Daha əvvəl Vyana, Qrats küçələrində görünən bu əcaib şəxsi bəziləri Hitlerin reinkarnasiyası, yəni dünyaya təkrar qayıdışı kimi qəbul edirlər.**

Tədqiqat gedir. Polis, bu əcaib olaya məntiq çərçivəsində cavab verə bilmir".

***

Keçək mövzu ilə əlaqəli bir başqa hadisəyə. Sözü verək əvvəlcə dünyanın ən aparıcı informasiya qurumlarının yaydığı bu əcaib xəbərə:

"ABŞ prezidenti Donald Tramp, Şimali Koreya lideri Kim Çen Irla təsadüfən Honhonk metropolitenində görüşüblər. Görüş, aktyor-imitatorlar sayəsində baş tutub. Hər iki ölkə lideri metro vaqonunda mehribancasına salamlaşaraq, sonra qatardan düşüb eşiyə çıxıblar. Saysız videokameraların müşayiəti altında öz aralarında bir xeyli söhbətləşiblər.

AFR agentliyinin yaydığı videogörüntülərdə Donald Tramp deyəsən bir azcana kökdü. Koreya lideri isə əksinə - yüzdə-yüz elə özünə bənzəyir. Şimali Koreya ilə ABŞ arasındakı soyuq münasibətlərə baxmayaraq, hər iki ölkə "lideri" öz şirin zarafatlarıyla yadda qalıb. Trampın oxşarı, videokameralar qarşısında CNN telekanalını qondarma xəbərlər yaymaqda ittiham etdiyi vaxt, Kim İr Çın da mövzuya biganə qalmayıb. Trampa olan simpatiyasını ətrafdakılarına sərgiləyib.

Sosial şəbəkələrdə özünə xeyli tamaşaçı toplayan bu səhnəciyə ciddi yanaşanlar da az deyil. İddia olunur ki, həmin bu səhnəciyi guya qətiyyən təsadüfi saymaq olmaz. Guya bunun arxasında böyük sirlər gizlənir. Guya bu, Tramp oxşarının cəmiyyətə ilk təqdimatıdır. Saf-çürükdən sonra bu oxşarın gələcək taleyi Ağ Evdə həll olunacaq.

Amerikada dövlət başçısının təhlükəsizliyini təmin edən məxfi qurum "United States Secret Service", qısaca "USSS" adlanır. Ölkə prezidentinin oxşarlarına da məhz bu qurum cavabdehdir. "USSS" adətən bu cür oxşarları aşkarlayıb, əvvəlcə nəzarətə götürür gizlincə.

Trampla Şimali Koreya liderinin görüş səhnəcəyini də məhz bu qurum təşkil edib, biləsiz.

***

Gətirdiyim misalda təəccüblü heç nə yoxdur. Əksər prezidentlərin, ölkə başçılarının oxşarı mövcuddur. TV ekranlarında gördüyümüz siyasi xadimlərə azca diqqətlə baxsanız, aradakı təkzibolunmaz fərqləri anında hiss edərsiz. Oxşarların tapılıb aşkarlanması, hazırlanması prosesi "Tam məxfi!" qrifi altında keçirilir. Soruşsanız, bəs, icraçısı kimdi, deyəcəm, necə yəni kim? Prezidentlərin təhlükəsizliyini təmin edən xüsusi məxfi qurumlar, vəssalam. Deyəcəksiz niyə, hansı səbəbə dünyadakı əksər prezidentlərin oxşarı mövcuddu? Aradakı fərqləri necə duymaq olar? Cavab verəcəyəm sizə - bu cür gizlinlərin əsas sirrini yalnız kinorejissorlar bilər.

***

Postsovet məkanında elə tanınmış kinorejissor qalmayıb ki, öz prezidenti barədə pis-yaxşı ortabab, necə deyərlər, "pivəylə gedən" bir film çəkməsin. O cür alaçıy filmlər çəkilməyinə çəkilir indi. Ancaq əksər hallarda ekranlara buraxılmır nədənsə. Mövzunu diqqətlə araşdırdıqdan sonra bu müəmmanın əsl səbəbi bizə bəlli oldu bir azacıq.

Bəlli oldu ki, həmin filmlərin ana hədəfi heç də sənət-filan deyil. Səbəb bu filmlərdə ölkə prezidentinin oxşarını yaradıb onu diqqətlə nəzərdən keçirməkdi. Yəni burda film mövzusu sadəcə bəhanədir. Rejissor, sifariş aldıqdan sonra ilk növbədə müvafiq bir aktyor axtarıb tapmalıdır. Prezidentin bütün tanış ədaları, nitq qüsurları, üz ifadələri, gizli-açıq cəhətləri ilə tanış etməlidir həmin aktyoru. Baxıb görməlidir bu aktyor girə bilirmi prezidentin cildinə? Danışıq tempini təkrarlaya bilirmi heç? Ətrafındakı insanlarda şəkk-şübhə yaratmayırmı özü barəsində?

Bilirsinizmi, kimin, hansı dövlət başçısının ən çox oxşarı olub bu fani dünyada? Görürəm sizdən səs çıxmır, məcbur qalıram bu suala özüm cavab verəm. Həəə, mənim əziz bacı-qardaşlarım, dünyada ən çox oxşarı olan rəhbər Leonid Brejnev deyil, Barak Obama deyil, Boris Yeltsin deyil, bilirsiz kim idi? İrağın asılaraq qətlə yetirilən prezidenti Səddam Hüseyn.






Rəhmətliyin öz oxşarlarına bəstələdiyi sevgiyə tezliklə oğlu Udey Hüseyn də yoluxur. O da özünə bir oxşar tapıb, başlayır atası kimi onu müxtəlif dövlət tədbirlərinə göndərməyə. Lətif Yəhya adlı bu oxşar sonralar öz xatirələrini ayrıca kitab şəklində çap edərək dünyanı qatır bir-birinə. Xatirələr Hollivud kinorejissoru Li Timaxorinin diqqətini də özünə cəlb edir. Roman əsasında 2011-ci ildə çəkilmiş "The Devil's Double" (Şeytanın oxşarı) kinofilmi öz kinomanlarına indi də dinclik vermir.

Filmin məzmunu ilə yaxından tanış olsanız, oxşarlar məktəbinin nə olduğunu dərindən dərk edib, mənə bu barədə artıq suallar verməzsiniz.

***

İran-İraq müharibəsinin iştirakçısı sıravi əsgər Lətif Yəhyaya elə səngərdəykən qəribə təklif gəlir - ona deyirlər ki, gərək Səddamın oğlu Udeyi əvəzləyəsən. Oxşarına çevrilib müxtəlif tədbirlərdə iştirak edəsən. Bəzən, necə deyərlər "atəşi öz üzərinə götürərək" Udeyi labüd ölümdən, müxtəlif digər təhlükələrdən xilas edəsən.

Zadəgan əsilli Lətif, demə ki, Udeylə eyni elitar məktəbi bitirib. Hələ o vaxtlar Udeyə oxşarlığı, şagirdlər arasında əməlli-başlı xof yaratmışdı bu cütlük qarşısında. Uşaqlar çox vaxt onları səhv salır, bilmirdilər qarşılarındakı Udeydi, yoxsa Lətif. Xoşbəxt uşaqlıq zamanı min cür xoş zarafatlara şərait yaradan bu cəhət sonradan Lətifin əsl bəlasına çevrilir. Təklifə qəti və birmənalı yox deyən Lətif, zindana atılıb işgəncələrə məruz qalır əvvəlcə. Ailə üzvlərinin həyatı bu tərəzinin gözü üzərinə qoyulduğu an, Lətifin əsəbləri dözmür. O, əlacsız qalıb, təklifə razılıq verir. Nəticədə Udeyin şahanə şəxsi həyatına, əşyalarına, avtomobil parkına maneəsiz çıxış əldə edib əvvəlcə bir azacıq ağlını itirir. Sonra özünə gəlib başlayır bu həyatın necə deyərlər ləzzətini dadmağa. Aradakı bəzi zahiri fərqlərə son qoymağa xatir Lətif kosmetik əməliyyata məruz qalma təklifinə də yox demir.

Bir dəfə, iki dəfə sui-qəsdə məruz qalan Lətif, günlərin birində lap zibilə düşür az qala. Növbəti sui-qəsd zamanı bir barmağı yamanca zədələnir. Həkim deyir bəs barmağı kəsmək lazımdı. Ancaq məsələ bununla bitmir. Əksinə daha da ciddiləşir.

***

Bəlli olur ki, barmaq, işdi, əgər, kəsilsə, demək, Udeyin də həmin barmağı kökündən kəsilməlidir.

Gərginlik, qalxıb çıxır lap kələçarxa. Həkimlər axır işə qarışıb problemi birtəhər sona çatdırmağı bacarırlar. Udeyin növbəti sevgilisi, daha düzünü desək, növbəti qurbanı Sarrab adlı gözəl qızcığaz bu zaman ilk fürsət tapınca Lətifin boğazına sarılır. Udeylə Lətifin məxfi sirrini açıb bunu Lətifin qulağına pıçıldayır.







Xaricə qaçmış sevgi cütlüyünü təqib edən səddamçılar onları çətin seçim qarşısında qoyurlar. Deyirlər İraqa qayıtmayacağınız halda valideynlərinizdən biri mütləq öldürüləcək.

İraqa dönən Lətif axır öz oxşarı Udeylə təkbətək döyüşə girib onu öldürməyə cəhd göstərir. Bilir ki, daha vaxt çatıb, oxşarlardan biri mütləq səhnəni tərk etməlidir.

Rejissor Li Timaxori filmin bu dramatik kadrlarında yüksək peşəkarlıq nümunələri sərgiləyir. Ekranda canlandırdığı psixoloji qarşıdurma səhnələrini elə çəkir ki, tamaşaçı özünü itirir bir an. Hər iki oxşar arasındakı fərqləri bir an itirib xəyala dalır öz-özünə. Deyir, bəlkə bu oxşarlar həqiqətən Siam əkizləridir? Bəlkə Allah onları bilə-bilə bu cür yaradaraq İraqa göndərib?

Udey yaralansa da döyüş, nəticəsiz qurtarır. Filmin axırında deyilir ki, Lətif indi İrlandiyada yaşayır. Evlənib. Oğul-qız sahibidir. Udey isə 2003-cü ildə qətlə yetirilib.

Udeyin yerində Lətif olmalıydı. Ancaq yaxşı ki, o, bu taleyindən bir vaxt özü imtina etdi.

***

Oxşarlar mövzusu yada düşərkən amerikalılar həmişə Hillari Klintonu xatırlayırlar. İddia edirlər ki, Hillarinin oxşarı Tereza Barnell, bəzən hətta Bill Klintonla birgə dövlət tədbirlərində görünür. Mövzunun ardını amerikalılar cürət edib, açıqca davam etdirə bilmirlər. Başlarını əyirlər böyürlərindəki dinləyicilərinin qulağına...

2015-ci ildəki bir diplomatik sammit zamanı Venesuela prezidenti Nikolas Moduranın oxşarı, səhv edərək eyni anda əsl Modura ilə birgə salona daxil olur. Yazıq jurnalistlər qarşılarında iki Moduranı görüb lap çaşbaş qalırlar. Əlləri telekameraların düyməsinə gedərkən görürlər ki, Moduranın biri cəld tərpənərək qapıya tərəf qaçır...

Ancaq Stalinin oxşarı SSRİ xalq artisti Feliks Dadayev heç vaxt heç yerdə Stalini bu cür pərt vəziyyətə salmayıb. Həmişə ətrafdakılarını aldadıb; guya qarşılarındakı əsl Stalindir. O, təkcə filmlərdə Stalin rolu ifaçısı deyildi, biləsiz. Həyatda da çox vaxtlar Stalini əvəzləyirdi.

Bu dövlət sirri üzərindən tozlu pərdəni o, çox-çox sonralar, elə lap bu yaxın günlərdə qaldıraraq əsl həqiqəti Rusiya ictimaiyyətinə açıqlayıb.

Sabiq NKVD işçisi Vikor Malevannının iddialarına görə Stalin öz oxşarlarından hələ cavan vaxtlarından istifadə edərək çar xəfiyyələrini dəfələrlə azdırıb. Sui-qəsd zamanı onlarca Stalin oxşarı həlak olsa da, Allah özü sanki onu güllələrdən, zəhərli içkilərdən xilas edib.

Bəziləri bu söhbəti eşidərkən ağızlarını büzürlər. Deyirlər Stalini güllələrdən, zəhərlərdən qurtaran Allah deyil, cangüdənlər deyil, Stalinin saysız oxşarlarıdır, vallah.

***

Mixail Qorbaçovun "Jenya" adlı oxşarı demək olar əksər tədbirlərdə öz həqiqi sahibini əvəz edib. Aralarındakı yeganə fərq Qorbaçovun alnındakı xal ləkəsiymiş. Mixail Sergeyeviçin sadə insanlarla görüş səhnələrinə dırnaqucu qədər belə inanmayın. Qorbaçovun özü yox... oxşarı Jenya çox mehriban, istiqanlı bir insanmış. Qarbaçova deyirmiş sən get bağa dincəl. Fəhlə-kəndli sinfi ilə özüm görüşərəm...

İddialara görə çar 1-ci Pyotr Hollandiya səfərindən sonra öz oxşarı ilə əvəzlənib. Bu mövzuda akademik N.B.Levaşovun maraqlı bir məqaləsi mövcuddu. Onu oxumaq hamınıza məsləhətdi.

Oxşarlar mövzusuna son nöqtə qoya biləcək fakt isə "Bittlz" musiqi kvarteti ilə əlaqədardı. Qrupun təbilçisi Rinqo Star iddia edir ki, müğənni-bəstəkar Pol Makkartni hələ 9 noyabr 1966-cı ildəki bir yol qəzası zamanı həlak olub. Sonradan başqasıyla əvəzlənib.

Özü də bu etirafını Rinqo Star, yeni il axşamı - 30 dekabr 1999-cu il tarixində lentə alıb.

Həəə, bu mövzu, bu xəmir deyəsən hələ çox su aparacaq...

Təkcə dövlət başçıları, siyasi liderlər bənzərlərdən istifadə etməyiblər. Bu təcrübədən nüfuzlu iş adamları, milyarderlər, transmilli korporasiya rəhbərləri də zaman-zaman yararlanıb. Hətta Azərbaycanın müxalifət liderlərindən biri də seçki kampaniyalarında oxşarını bəzi epizodlarda kütlə qarşısına çıxarırmış...

❑ **Həmid HERİSÇİ**

# Sürücülərə yeni "sürpriz" - uşaq oturacağı

**Son** iki gündə ən çox müzakirə olunan məsələlərdən biri də Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Vaqif Əsədovun açıqlamalarıdır. Bu açıqlamalarda polkovnik qeyd edib ki, hazırda bəzi məsələlərlə bağlı sərtləşdirilmiş qaydalar tətbiq olunacaq.

## Ekspertlər bunu absurd adlandırır; DYP rəsmisinin sözlərinə görə, söhbət yalnız uşaqla tək yol gedən sürücünün cərimələnə bilməsindən gedir

Onun sözlərinə görə, ən vacib məsələlərdən biri, hərəkətdə olan avtomobillərin içərində nəzarətsiz formada hərəkət edən uşaqların olması, azyaşlı uşaqların öndə, arxada ortada oturmasıdır: "Bu, yolverilməz haldır və təhlükəlidir. Sürücülərdən xahiş edirik ki, xüsusilə pik saatlarda, dərsdən gəlib-getmə zamanlarında, eyni zamanda azyaşlıların daşınması zamanı 12 yaşınadək uşaqların xüsusi oturacaqlarda oturmasını təmin etsinlər. Əks halda, qanunun tələbinə uyğun olaraq inzibati məsuliyyətə cəlb olunacaqlar. Ən azından öz övladınızın həyati təhlükəsizliyi üçün bunu etməyə borclusunuz. Çünki yol qəzası baş verən zaman avtomobilin çırpılması ətalət qüvvəsi yaradır və nəticədə azyaşlı ağır xəsarət alır, bu da ölümə səbəb ola bilər".

İdarə sözçüsü həmçinin bildirib ki, fevralın 15-də gün ərzində Bakı şəhərində keçirilən tədbir zamanı 760 sürücüyə, 31 sərnişinə təhlükəsizlik kəmərindən istifadə etməməyə görə protokol tərtib olunub: "Eyni zamanda, azyaşlı uşaqların daşınması zamanı xüsusi oturacaqdan istifadə etməyən 16 sürücü cərimələnib. Onlardan biri hətta şikayət də edib. Özü etiraf edir ki, azyaşlı uşağı ön oturacaqda oturdub və kəmər də bağlayıb. Amma təkcə kəmər bağlamaq düzgün deyil, xüsusi oturacaq olmalıdır ki, sürücünün diqqəti uşaqda qalmasın. Məsələn, uşaq öndə oturarkən əyləcə basanda istər-istəməz sağ əlini uşağın qabağına tutursan ki, harasa dəyib əzilməsin. Bu da sürücünün diqqətini yayındırır. Bir var ailə ilə maşında yol gedirsən, bu zaman sürücünün diqqəti uşaqda olmur. Bir də var uşaq maşında təkdir və sürücünün diqqəti onu sakitləşdirməkdə qalır".

Vaqif Əsədov yayıla biləcək şayiələrin qarşısını almaq üçün öncədən məsələnin mahiyyətini açıqlayıb: "Çox güman ki, bu yazını oxuyanlar elə hiss edəcək ki, yenə şəhərə kimsə xüsusi oturacaqlar gətirib satmaq istəyir. Xeyr, elə deyil, həmin oturacaqlar artıq şəhərdə var. Biz sadəcə qanunun tələbinin yerinə yetirilməsini xahiş edirik".

### Qəzalarda ölənlərin böyük hissəsi uşaqlardır

"Yeni Müsavat" xatırladır ki, avtomobil qəzalarında həyatını itirən hər 100 insandan 15-i uşaqdır. Yaralanmalarda da bu rəqəm eynidir. Türkiyədə yol qəzalarında yaralanan, ya da həyatını itirənlərin 30 %-i 0-14 yaş arası uşaqlardır. Dünya Səhiyyə Təşkilatının məlumatlarına görə, qərbi Avropa ölkələrində yol qəzalarına məruz qalan hər 100 uşaqdan 3-ü həyatını itirir.

Avropalı ekspertlər müəyyənləşdirib ki, uşaqları qucaqda aparmaq problemin həlli deyil. Qucaqda aparılan 5.5 kq çəkisi olan körpə avtomobilin 40 km/saat hərəkət sürətində 110 kq-a kimi ağırlaşa bilir. Əlbəttə ki, bu ağırlığı əldən buraxmamaq da asan iş deyil. Uşaq oturacaqlarını alanda isə onun hansı çəki və yaş dövrü üçün hesablandığını mütləq nəzərə almaq lazımdır. Bu çox maliyyə xərci tələb edən bir işdir. Çünki uşaqlar çox tez böyüyürlər. Ona görə də bu oturacaqları bir neçə il üçün almaq çox səhv addımdır.



V.Əsədovun məlum açıqlaması sürücülər üçün yeni bir problemin xəbərçisidir. Çünki bu günə qədər maşınında xüsusi oturacağı olmayan sürücüləri yeni bir cərimə gözləyir. Özü də qanunla.

### Oturacaq yoxdursa, 3 bal, üstəgəl 60 manat cərimə

12 yaşadək uşaqlarla bağlı sərnişindaşıma qaydalarının pozulması faktı varsa, yəni 12 yaşadək uşaqlar ön oturacaqda xüsusi oturacaqlara otuzdurulmursa, İnzibati Xətalar Məcəlləsinin 151.2-ci (Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması) maddəsinə əsasən, həmin sürücülər 60 manat miqdarında və 3 cərimə balı ilə cəzalanırlar. Amma buna baxmayaraq, bu qaydalar yenə də az qala kütləvi şəkildə pozulur.

### Kreslonu qapıların yanına yox, arxa oturacağın ortasına yerləşdirin

Ekspertlər müəyyənləşdiriblər ki, uşaq oturacağı üçün ən etibarlı yer arxa kresloda, yan hava yastıqlarından uzaqda olan bir yerdir. Hava yastığı şişəndə uşağınızın başının olduğu yerə bərabər gəlir və bu, ciddi və ya ölümcül bir zədəyə səbəb ola bilər. Uşaq oturacağını qapıların yanına qoymaq yerinə arxa oturacağın ortasına yerləşdirmək daha məsləhətlidir.

Aparılan araşdırmalar zamanı məlum olub ki, uşaq oturacağında dik oturmaq kiçik və yeni doğulmuş körpələrdə tənəffüsü çətinləşdirir, qandakı oksigen səviyyəsinin düşməsinə gətirib çıxarır. Çünki bu mövqe döş qəfəsi üzərində təzyiq əmələ gətirə bilər. Səyahət əsnasında uşağınızı bu oturacaqda uzun müddət dik oturtmayın. Oturacağı uşağınızın başının boş qalmayacağı şəkildə seçin və boyun yastığı kimi aksesuarlardan istifadə etməyin.

1 yaşına qədər (13 kq-a qədər) körpələr üçün hazırlanmış olan ana qucağı modeli arxa oturacağa körpənin üzü arxaya baxacaq şəkildə quraşdırılmalıdır. 4 yaşından sonra isə (15-36 kq arası) boy və çəki olaraq hərəkətli oturacaqları istifadə edə bilməyən və hələ təhlükəsizlik kəmərini də istifadə etməyə hazır olmayanlar üçün isə yüksəldici oturacaqlar istifadə olunmalıdır. Təhlükəsizlik kəməri ancaq 12 yaşından sonra taxılmalıdır.

**Ekspert Ərşad Hüseynov** "Qafqazinfo"ya açıqlamasında bu yeniliyi şərh edib və qanunsuz olduğunu bildirib: "Yol hərəkəti haqda qanunun 56-cı maddəsinin 9-cu bəndinə görə yalnız ön oturacaqda 12 yaşadək uşaqlar daşınarkən xüsusi oturacaqdan istifadə edilməlidir. Arxa oturacaqlarda uşaqların daşınması üçün "avto kreslo" tələb olunmur. Buna görə də heç kimi cərimələmək olmaz. Həmçinin, arxa oturacaqda daşınan uşaqlar üçün kəmər taxmaq da məcburi deyil.

Qanunverciliyimizdə olan bir boşluq da budur ki, arxa oturacaqlarda daşına biləcək uşaqların sayı müəyyən olunmayıb. Yəni istəsəniz arxa oturacağa 10-15 uşaq mindirə bilərsiniz. Sürücünün yanındakı sağ ön hissədə xüsusi oturacaq olmadan 12 yaşadək uşaqların daşınmasına görə İnzibati Xətalar Məcəlləsinin 327-ci maddəsinin 2-ci bəndində 60 manat cərimə və 3 bal cəza nəzərdə tutulub".

❑ **Sevinc TELMANQIZI**

# Jurnalistlərlə "Azəriqaz" arasında təbii qaz qalmaqalı

## Jurnalistlər yaşadıqları binada uzun müddətdir ki, təbii qazın verilişində problem olduğunu bildirirlər; "Azəriqaz" sözçüsü isə "heç bir problem yoxdur" deyir...

**2013-cü ildə istifadəyə verilən Bakının Bibiheybət qəsəbəsində jurnalistlər üçün tikilmiş çoxmərtəbəli binada qaz problemi yaşanır. Bu barədə "Yeni Müsavat"a binada yaşayan jurnalistlər məlumat veriblər. Jurnalistlərin sözlərinə görə, 3 ildir ki, qış aylarında binaya təbii qazın verilməsi ilə bağlı bəzi problemlər ortaya çıxır. Onlar həmçinin söyləyirlər ki, binaya verilən təbii qazdan pis qoxu da gəlir.**



**"Yeni Müsavat"ın bəhs etdiyimiz binada yaşayan əməkdaşı Kənan Rövşənoğlu** bildirib ki, onlarda da eyni vəziyyətdir: "Bizdə də eyni vəziyyətdir, qaz yanmır. Hətta xüsusi kombi istifadə etsək də, yenə də qaz yoxdur. Qazın yerinə hava gəlir".

**Jurnalist Rey Kərimoğlu** "Yeni Müsavat"a bildirib ki, binada bir sıra problemlər var: "Bir neçə ildir biz jurnalistlərin binasına köçmüşük. Köçəndən qaz problemi yaşayırıq. İstilik sistemi ümumi deyil, hər mənzilə kombi quraşdırılıb. Qazın çirkli olması və qeyri-stabil verilməsi ucbatından kombilər tez-tez sıradan çıxır. Hamı da bilir ki, qazdandır. Yazmadığımız, şikayət etmədiyimiz yer qalmayıb. Bu qışqabağı nisbətən düzəlmişdi. Amma dünəndən yenə problem yaşanır".

**Jurnalist Vüsal Tağıbəyli** "Yeni Müsavat"a söyləyib ki, qazın tərkibi təmiz olmasa da verilişində problem yoxdur: "Qazın tərkibi təmiz deyil, buna görə də tez-tez kombilər çirklənir. Amma yarım il əvvəlki ilə müqayisədə indi bir az daha yaxşıdır. Əvvəl dəhşətli vəziyyət vardı. Qazı açıa bilmirdik, aşağı "xodda" qoysaq belə guruldayırdı, sonra isə sönürdü. Ona görə ki, təzyiqi ilə yanaşı tərkibinə vurulan havanın miqdarı da çox idi. İndi bir az yaxşıdır. Qazın kəsilməsinə gəlincə, arada gündüzlər kəsilir, qısa vaxtdan sonra verilir. Amma gecələr qazın kəsildiyini görməmişəm".

**Jurnalist Niyaz Niftiyev** mövzu ilə bağlı modern.az saytına bildirib ki, qazla bağlı problemlər əvvəllər daha çox olurdu: "Hazırda qaz verilir, amma verilən qazın qoxusu və havası çoxdur. Bu da bizim kombilərimizi sıradan çıxmasına səbəb olur. Mən artıq 2 kombi dəyişmişəm. Kombi servisində də bunun qazın havasının çoxluğundan meydana gəlməsi səbəbindən olduğunu deyiblər. Bizim araşdırmalarımıza görə, qazın belə qoxulu və havalı gəlməsinə səbəb mavi yanacağın təmizlənməmiş olmasıdır".

Jurnalist Qadir İbrahimli isə söyləyib ki, binaya verilən qaz emal olunmamış qazdır: "Bunu mütəxəssislər də təsdiqləyir ki, qazın tərkibi yaxşı deyil. Üstəlik də mütəmadi olaraq qaz kəsilir. Hazırda da binada qaz yoxdur. Qaz gələndə də təzyiqi çox aşağı olur. Bu da bizim kombilərimizin sıradan çıxmasına və müxtəlif problemlərə səbəb olur. Bu problem hər zaman olub, bununla bağlı bir neçə dəfə şikayət etmişik, amma heç bir nəticəsi olmayıb. Problem tək bizim bina ilə bağlı deyil, bu, qaz xəttindən qaynaqlanır. Ümumiyyətlə, bu konseptual bir yanaşma tələb edir ki, kəmərə vurulan qazı dəyişsinlər, normal qaz versinlər. Qazın tərkibi və təzyiqi ilə bağlı problem bizdə hər zaman olub".

Jurnalistlərin şikayətləri ilə bağlı münasibət öyrənmək üçün **"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayevlə** əlaqə saxladıq. İ.Kərbəlayev "Yeni Müsavat"a bildirdi ki, binada mövcud problem, artıq aradan qaldırılıb: "16 fevral-da həmin binada təbii qazın verilişində məhdudiyyətlər var idi. Artıq həmin problem aradan qaldırılıb. Təbii qazın verilişində hər hansı bir məhdudiyyət yoxdur. Təbii qazın tərkibinə gəlincə isə bunda da hər hansı bir problem yoxdur . Belə ki, təbii qazın tərkibi Neft Qaz Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən hər ay yoxlanılır. Qazın tərkibi təmizdir və heç bir problemi yoxdur".

❑ **Əli RAİS**

# Xətainin heykəli köçürüləcəkmi...

## Son qərarı BŞİH verəcək; **Pənah İmanov:** "Bu işin sifarişçisi Bakı Şəhər İcra Hakimiyyətidir"

**Bakıda Şah İsmayıl Xətainin heykəli ucalan Yusif Səfərov küçəsində genişləndirmə işləri başlayıb. Bu məqsədlə yolu ikiyə bölən park aradan götürüləcək. Üçzolaqlı yol altızolaqlı olacaq. Ancaq yolun tam ortasında qalan Xətainin heykəlinin aqibətinin necə olacağı isə hələ də sual altındadır. Xətainin heykəlinin oradan götürülüb şəhərin başqa yerinə qoyulacağı iddia olunur. Həmçinin, heykəlin elə yerində qalacağını deyənlər də var. Ancaq rəsmi və konkret olaraq heykəlin götürülüb-götürülməyəcəyinə dair bir məlumat yoxdur. Qəzetimizin ötən buraxılışında Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vüqar Şixəmmədov onlara rəsmi müraciət olunmadığı üçün bu məsələyə baxa bilmədiklərini demişdi.**



Heykəlin sökülüb sökülməyəcəyini öyrənmək üçün Xətai rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Xətai rayon İcra hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov "Yeni Müsavat"a bildirdi ki, Xətainin heykəlinin orada qalıb-qalmayacağını ərazidə genişləndirmə işi aparan sifarişçidən soruşmaq lazımdır: "Bizdə olan məlumat budur ki, Yusif Səfərov küçəsində abadlıq quruculuq işləri çərçivəsində yolun genişlənməsi prosesi gedir. Bunun sifarişçisi Bakı şəhər İcra Hakimiyyəti, icraçısı isə "Azəravtoyol" ASC-dir. Bu işləri onlar görür. Xətainin heykəlinin orada qalıb-qalmayacağı sualının cavabını sifarişçidən, yeni Bakı şəhər İcra Hakimiyyətindən soruşmaq lazımdır. İctimai-siyasi şöbənin müdiri Pənah müəllim olaraq məndən soruşsanız ki, Xocalı heykəli ilə bağlı nə deyə bilərsiniz, mən əzbərdən hər şeyi, onun yaranmasından, tikilməsindən, qoyulmasından danışa bilərəm. Çünki bunu Xətai rayon İcra Hakimiyyəti edib. Amma bu gün aparılan işin sahibi Bakı şəhər İcra hakimiyyətidir. Bu heykəl böyük, dahi bir şəxsiyyətin heykəlidir və bunun sənət əsəri olaraq Mədəniyyət və Turizm Nazirliyində reyestr nömrəsi var. Ona görə də bunu Bakı şəhər İcra Hakimiyyəti və Mədəniyyət və Turizm Nazirliyindən soruşmaq lazımdır".

**Sualımıza cavab almaq üçün Bakı şəhər İcra Hakimiyyətinə dəfələrlə zəng etsək də telefonlarımıza cavab verən olmadı.**

❑ **Günel MANAFLI**

# Bakıda qadın, Gədəbəydə kişi intihar etdi

## Anasının ölümündən sarsılan 30 yaşlı qadın canına qıyıb



**Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Nərimanov küçəsində intihar hadisəsi qeydə alınıb.**

SalamNews-un əldə etdiyi məlumata görə, 1987-ci il təvəllüdlü Kərimova Nigar İldırım qızı yaşadığı həyət evinin hamam otağında iplə özünü asıb. Hadisənin baş verməsinə ilkin səbəb kimi onun 3 il bundan öncə dünyasını dəyişmiş anasının ölümünü qəbul edə bilməməsi olub. Bundan öncə də 30 yaşlı qadın müxtəlif dərmanları dozadan artıq qəbul edərək intihara cəhd edib. Nigar Kərimovanın intihar etməsi barədə ilk xəbər tutan onunla birgə yaşayan xalası olub.

Meyit müayinə olunmaq üçün Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Qaradağ rayon şöbəsinə aparılıb. Faktla əlaqədar Qaradağ Rayon Prokurorluğunda 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

**Gədəbəy rayonunda da intihar hadisəsi baş verib.**

Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Çalburun kəndində qeydə alınıb. Kənd sakini, 1991-ci il təvəllüdlü Ceyhun Elxan oğlu Bağırov yaşadığı evdə özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

**Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.**



## Dəm qazı 16 yaşlı qızın həyatına son qoydu

**Gəncədə dəm qazı daha bir nəfərin həyatına son qoyub. APA-nın Qərb bürosunun verdiyi məlumata görə, hadisə şəhərin Muxtar Hacıyev küçəsində qeydə alınıb. Orada yaşayan, 2001-ci il təvəllüdlü Nərgiz Yəhya qızı Zeynalovanın meyiti yaşadığı evin hamamında aşkar edilib.**

İlkin ehtimala görə, N.Zeynalova dəm qazından zəhərlənərək ölüb.

Faktla bağlı araşdırma aparılır.

## Bakı sakini spirtli içkidən zəhərlənib öldü

**Bakı sakini spirtli içkidən zəhərlənərək ölüb. Suraxanı rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayonun Hövsan qəsəbəsində yaşayan Fehruz Məhərrəmov alkoqoldan zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Sumqayıtda 85 yaşlı kişini maşın vurub öldürdü

**Sumqayıtda 85 yaşlı kişini maşın vuraraq öldürüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, fevralın 16-da saat 08 radələrində Sumqayıt şəhərində şəhər sakini Balaoğlan Məmmədov idarə etdiyi "KİA" markalı avtomobillə yolu keçən şəhər sakini, 85 yaşlı Seyidağa İsmayılovu vurub. Piyada hadisə yerində ölüb.**

Sumqayıt Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılır.



## Bakıda həkim piyadanı maşınla vurdu

**Xəzər rayonu ərazisində Mərdəkan avtomagistralında 1961-ci il təvəllüdlü Babayev Rəfi Hacıağa oğlu yolu keçərkən "Range Rover" markalı avtomaşın tərəfindən vurulub.**

SalamNews-a zərərçəkənin ailə üzvlərinin verdiyi məlumata görə, yaralı sürücü tərəfindən 3 saylı Şəhər Kliniki Xəstəxanasına gətirilib. Tibbi müdaxilədən sonra yaralının həyat təhlükəsi aradan qaldırılıb. Həkimlər Rəfi Babayevin vəziyyətinin qənaətbəxş olduğunu bildiriblər.

Faktla əlaqədar Xəzər Rayon Polis İdarəsində araşdırmalara başlanılıb. Sürücünün izahatı alınıb və avtomobil cərimə meydançasına aparılıb.

İlkin araşdırmalar zamanı məlum olub ki, evdən çıxan Rəfi Babayev yolu keçərək yaxınlıqdakı marketə getmək istəyib. Yol işıqsız və yağıntı səbəbilə sürüşkən olduğundan, həmçinin "Range Rover" markalı avtomaşın sürət həddini aşdığından məlum qəza baş verib. Qeyd edək ki, "Range Rover" markalı avtomaşının sürücüsü diş həkimidir və hadisə o, işdən evinə qayıdarkən baş verib.

## Odessada azərbaycanlı kriminal avtoritet tutuldu

**Ukraynanın Milli polisinin əməkdaşları və Təhlükəsizlik Xidmətinin əməliyyatçılarının keçirdiyi birgə xüsusi əməliyyat zamanı Odessa vilayəti ərazisində fəaliyyət göstərən azərbaycanlı kriminal avtoritet saxlanılıb.**

"Report" Ukrayna KİV-inə istinadən xəbər verir ki, saxlanılan şəxs silah və narkotiklə bağlı cinayətlərə görə axtarışda olub.

Məhbus silah və narkotik ilə bağlı cinayətlərə görə axtarışda olub. Bakıdan olan gənc avtoritet hazırda həbsxanada olan Lotu Qulu ləqəbli "qanuni oğru"nun adamı olub.

Ukrayna Milli Polisinin Daxili Təhlükəsizlik Departamentinin nümayəndəsinin sözlərinə görə, saxlanılan şəxs müqavimət göstərməyə cəhd edib və əməliyyatçıları hədələyib. Qeyd edək ki, hazırda kriminal avtoritet müvəqqəti saxlama təcridxanasındadır və o, 5 ilə qədər azadlıqdan məhrumetmə cazası ilə üzləşə bilər.

## Daha bir İŞİD-çi qadın paltarında yaxalandı

**İraqın Kərbəla şəhərində qadın paltarı geyinərək özünü gizləməyə çalışan İŞİD üzvü yaxalanıb. Axar.az "Haber 7"-yə istinadən xəbər verir ki, polis sözügedən terroristin Kərbəlada terror planı hazırladığını vurğulayıb.**

İŞİD üzvünün qadın geyimindəki fotoları sosial şəbəkədə sürətlə yayılmağa başlayıb.

## 61 kimsəsiz şəxs küçədən götürülərək xəstəxanalara yerləşdirilib

**Yanvarın 1-dən bu günə kimi Bakıda 61 kimsəsiz şəxs - "bomj" təcili yardım briqadaları vasitəsilə xəstəxanalara yerləşdirilib. Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev APA-ya bildirib ki, onlar 6, 7, 18, 19, 26 nömrəli Birləşmiş Şəhər xəstəxanalarından birinə çatdırılıb. Kimsəsizlərdən 54-ü kişi, 7-si isə qadın olub.**

Baş həkim qeyd edib ki, ötən gündən müşahidə olunan qarlı və şaxtalı havada 3 kimsəsiz şəxs-"bomj"lar küçələrdən götürülərək 6 saylı Birləşmiş Şəhər Xəstəxanasına aparılıb.

**Qeyd edək ki, kimsəsiz şəxslərin xəstəxanalara yerləşdirilməsi prosesinə səhiyyə nazirinin əmri ilə ötən ildən başlanılıb. 2016-cı ildə ümumilikdə 400-ə yaxın kimsəsiz şəxs təcili yardım tərəfindən götürülərək xəstəxanaya yerləşdirilib.**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 37 (6651) 18 fevral 2017



# Dələduz tikinti şirkətlərinin adları açıqlandı - nəticə olacaqmı...

## Ekspertlər bu istiqamətdə şəffaflığın olacağını güman edirlər

**Ötən il vətəndaşların ən çox şikayət etdikləri tikinti şirkətlərinin adı bilinib. Bunu Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov açıqlayıb. "Təəssüf ki, 100-dən çox mənzil-tikinti kooperativi və şirkət barəsində daxil olan şikayətlər vətəndaşların haqlı olduğunu bir daha təsdiq edir.**

2016-cı ildə daxil olmuş şikayətlərin bir qismində vətəndaşlar inşa edilmiş çoxmərtəbəli yaşayış binalarının müvafiq norma və qaydalara uyğun tikilməməsindən, müqavilə şərtlərinin kobud surətdə pozulmasından, bəzi şirkətlərin mənzilin pulunu aldıqdan sonra yoxa çıxmasından, mənzillərin dövlət komissiyası tərəfindən istismara qəbul edilməməsindən, vətəndaşların bu binalarda aldıqları mənzilə mülkiyyət hüququnu təsdiq etdirə bilməməsindən, yol verilən süründürməçilikdən, qazın və suyun vaxtında verilməməsindən, bunun üçün sakinlərdən dəfələrlə əlavə pul yığılmasından şikayətlənirlər. Bunlardan "Kristal Abşeron", "Kristal-L", "Fortis-Bayıl", "İlin dörd fəsli", "Belıy lebed", "Şərur", "Deluxe", "Orbita", "Badu-Kubə", "Birlik", "Xəmsə", "Hasil", "ARAZ-2011A", "İnkişaf-S", "Rahatlığın Məkanı-Gold", "Ulduz-S", "Murad M.S.", "FVS İnşaat", "BAKİNKOM", "Yusifoğlu", "AAAF İnşaat", "Evrostroy Group", "Akkord", "Rahat", "Orbit", "Nur", "Yüksəliş C", "Olimp", "İ.N.V.", "Neftçi", "Pərvin İnşaat", "Azərros İK", "Xəzər İnşaat-XXI əsr", "Mur Ay", "RT-LTD", "Ələsgəroğlu-K", "Svit Haus" və başqalarını qeyd etməliyik". PA rəsmisinin sözlərinə görə, son illər vətəndaşlar üçün ciddi problemlər yaradan belə MTK, MMC və şirkətlərin bir çoxu barəsində cinayət işi açılıb. Vətəndaşlara dəymiş ziyan tam və ya qismən ödənilib. "Məsələn, 2016-cı ildə "MTK Real"ın rəhbəri İlham Qasımov 15 il, "198 Saylı", "200 Saylı" MTK-ların rəhbəri Etibar Fərziyev 14 il həbs cəzasına məhkum edilmiş, digər MTK-ların - "Əli bəy", "Əzizbəy-KM", "AENT-E", "Fateh-N", "Badu-Kubə", "Şahbulaq", "Term", "İDEAL-İ İnşaat", "Mehriban Qonşular", "Xətai-2", "Ulduz-S", "Azərtikinti ATF", "Dərəçiçək", "Fuad LTD", "Birlik İnşaat" MTK, MMC və şirkətlərin rəhbərləri və digər məsul şəxsləri barədə cinayət işləri açılıb. Bu cinayət işlərinin bəzisi artıq yekunlaşmış, təqsirli şəxslər cəzalandırılıb". *(istipress)*

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bu məqam müsbət nəticələrə səbəb olacaq: "Bir neçə il əvvəl tikinti şirkətlərinin dələduzluq hallarının qarşısının alınması, istifadəyə götürülməyən binalarda, Fövqəladə Hallar Nazirliyi tərəfindən təhvil alınmamış, amma real istifadə olunan binalarla bağlı elektron bazanın yaradılması ilə bağlı təklif vermişdim. Bildirmişdim ki, alqı-satqı müqavilələri notarius qaydasında imzalanmalıdır və bununla da həmin məlumatların elektronlaşması kimi təkliflər irəli sürmüşdüm. Düşünürəm ki, eləcə də tikinti şirkətlərinin elektron səhifəsinin olması vacibdir. Məncə, bunlar vacib idi. Artıq hökumət qeydiyyatsız binaların elektron qeydiyyatının yaradılması məsələsini üzərində işləyir. Bu da təbii ki, həmin binalarda yaşayan vətəndaşlar üçün vacib məqamdır. Problem odur ki, bəzi tikinti şirkətləri tərəfindən bir mənzil bir neçə nəfərə satılıb. Son illər bu, bir qədər azalıb. Amma yenə də bu problem qalmaqdadır. Əslində Prezident Administrasiyası tərəfindən belə bir açıqlamanın olması çox müsbət haldır. Eləcə də tikinti şirkətlərinin hesabatlılığının izlənməsi baxımından bu vacibdir. Güman edirəm ki, son açıqlamadan sonra inşa edilən binalarla bağlı qeydiyyatın elektronlaşdırılması və satılan mənzillərin elektron qaydada qeydiyyatının aparılması məsələləri öz əksini tapmalıdır. Çünki yeni inşa edilən binanın mənzillərinin satılmasının qeydiyyatı nəticədə imkan verəcək ki, müştəri aldadılmasın. Hökumət üçün inşaat sektorunda şəffaflığın, hesabatlılığın artırılması artıq əsas prioritetlərdən birinə çevrilib".

**Ekspert Natiq Cəfərli** isə musavat.com-a deyib ki, tikintidə uzun illərdir müxtəlif problemlər var: "Hətta çox səs-küylü məhkəmə işləri də olub. Bir mənzilin bir neçə nəfərə satılmasından tutmuş müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə qədər kifayət qədər səs-küyə səbəb olan işlər olub. Çox güman ki, vəziyyət həddindən artıq çətinləşib. Belə tipli işlərin sayı həddindən çox artıb ki, artıq yuxarılar da buna reaksiya verməli olublar. Siyahının açıqlanması istehlakçılar nöqteyi-nəzərindən yaxşı haldır. O mənada ki, əgər bir vətəndaş gələcəkdə mənzil almaq istəyirsə, bu tipli şirkətlərin adlarının hallandığı siyahını gördükdən sonra bu fikrindən vaz keçəcək. Sadəcə, bu sahədə bir qanunauyğunluq çərçivəsində fəaliyyət göstərmək üçün bir mexanizmə ehtiyac var. Tikintiyə nəzarətlə bağlı çox sayda dövlət və hökumət orqanlarının olmasına baxmayaraq, hələ də bu sahədə normal bir düzən yaranmayıb. Deməli, bu, sistem problemidir. Sistemli yanaşma yoxdur. Bununla bağlı müxtəlif ölkələrin təcrübələri var. Məsələn, Rusiyada bir il əvvəl belə qayda qəbul olundu ki, təməldən satış qadağan olunsun. Azərbaycanda da çox populyar bir üsuldur, təməldən binanın satılmasıdır. Hələ bina hazır deyil, amma mənzillər satışa çıxarılır. Bu zaman müxtəlif endirimlər olduğuna görə, əhali üçün maraqlı olur. Sonradan isə müqavilə öhdəlikləri yerinə yetirilmir. Bir neçə nəfərə eyni mənzilin satışı həyata keçirilirdi. Bunun qarşısını almaqdan ötrü Rusiya hökuməti təməldən satışı qadağan etdi. Rəsmi qaydada qeydiyyatdan sonra, çıxarışlarla mənzil satıla bilər. Türkiyədə də oxşar üsul tətbiq olunur. Amma orada daha fərqli bir yanaşma var. Orada vətəndaş nəzarəti də güclüdür. Bizdə də buna bənzər bir modelin qurulmasına, yanaşmanın ortalığa qoyulmasına ehtiyac var. Sayının çox olmasına baxmayaraq, hökumət orqanları işi sonadək yürüdə bilmirlər. qanunlarda bəzi dəyişikliklərin edilməsinə də ehtiyac var".

❑ **AMİN**

# Qadağan edilmiş küçə ticarəti- pintilik, yoxsa mədəniyyət?

## **Ekspert:** "Küçə ticarəti həm iş yerləri yarada, həm də dövlət büdcəsinə kifayət qədər xeyir verə bilər"

**Küçə ticarətinə dünyanın əksər ölkəsində rast gəlmək mümkündür. Sanitar qaydalara uyğun həyata keçirilən küçə ticarəti şəhərin özünə xüsusi bir yaraşıq verir. Azərbaycanda da 2014-cü ilin yanvarına qədər küçə ticarəti bu və ya digər şəkildə vardı. Sonra ləğv edildi. Azərbaycandan fərqli olaraq inkişaf etmiş ölkələrdə isə küçə ticarəti şəhər mədəniyyətinin ayrılmaz hissəsi deməkdir. Belə ölkələrdə küçə ticarətinə təkcə gəlir yeri kimi yox, həm də turistlərin cəlb olunması, onların səyahətlərinin rəngarəngliyinin təmin olunması vasitəsi kimi baxırlar.**



Bu ölkələrdə küçə ticarəti bütün gigiyenik və sanitar qaydalara uyğun olaraq göz oxşayan dizaynla həyata keçirilir. Məsələn, Yaponiyada küçə ticarəti vasitəsi ilə hər gün 3 ton təzə balıq satılır. Türkiyədə də küçədə siz rahatlıqla dəniz kənarında gəzə-gəzə çay içə, kestane (şabalıd), balıq çörək və ya plov yeyə bilərsiniz. Bunlar xüsusi arabalarda satılır ki, bu da çox gözəl bir görüntü yaradır. Türkiyədə küçə ticarətçiləri bələdiyyəyə vergisini ödəyir və rahat şəkildə pulunu qazanır. Beləcə, həm dövlət büdcəsi xeyir görmüş olur, həm də satıcının özü. İtaliyada isə küçə ticarəti ilə günün müəyyən saatlarında 17:00-dan 21:00-a qədər məşğul olmağa icazə verilir.

Hazırkı iqtisadi krizis dönəmində Azərbaycana da belə bir ənənə gəlsəydi heç də pis olmazdı. Beləcə, həm qismən də olsa işsizlik problemi həllini tapmış olardı, həm də dövlət büdcəsi xeyir görərdi. Düzdür, indi də qadağan edilməsinə baxmayaraq küçə ticarəti ilə məşğul olanlar var. Məhəllələrə girib göyərti, balıq satanlar deyir ki, onlar hər məhəlləyə girməyə görə polisə 3 manat "hörmət" edir ki, onlara maneçilik törətməsinlər. Təbii ki, bu 3 manatlar da polisin cibinə gedir, büdcəyə yox.

**İqtisadçı-ekspert Natiq Cəfərli** bildirdi ki, küçə ticarəti minlərlə insanın işlə təmin olunması üçün bir vasitədir: "Küçə ticarəti bütün dünyada yayılmış bir qaydadır. Avropa ölkələrinin demək olar ki, hamısında belə bir fəaliyyət növü var. Sadəcə olaraq bunun sivil və sanitar qaydalara uyğun olaraq həyata keçirilməsinə ehtiyac var. Azərbaycanda 90-cı illərdə metronun çıxışlarında biz bunu kütləvi şəkildə görürdük. Bu, heç bir qayda-qanunlarla tənzimlənmədiyinə görə rüşvət mənbəyinə çevrilmişdi. Elə bu gün də küçə ticarəti ilə məşğul olanlar məcburən rüşvət verirlər. Bunun qarşısını almağın yeganə yolu sadə və çox aydın başa düşüləcək qaydaların tətbiq olunmasıdır. Bir çox ölkələrdə bu işi bələdiyyələr tənzimləyir və lisenziyalarla fəaliyyət göstərirlər. Azərbaycanda bələdiyyə sistemi demək olar ki, heç bir funksiya həyata keçirmir. Mənə elə gəlir ki, bələdiyyələrin canlanması, marağının artması, öz büdcəsini formalaşdırması üçün bələdiyyələr yolu ilə bunu həyata keçirməyə, qayda-qanunlar, sanitar normalar çərçivəsində küçə ticarətinin təşkil olunmasına ehtiyac var. Çünki bu əlavə olaraq minlərlə insanın işlə təmin olunması üçün bir vasitədir".

**N.Cəfərli küçə ticarətinin həm də büdcəyə əlavə vəsaitin daxil olması demək olduğunu bildirdi:** "Küçə ticarəti hım də büdcəyə əlavə vəsaitin daxil olması yollarından biridir. Ən azından bələdiyyə büdcələrinin formalaşmasında və yaxud da əgər 4 faizlik fərdi sahibkarlıq qaydası ilə işləyəcəklərsə, əlavə olaraq dövlət büdcəsinə birbaşa ödənişlərin artmasına səbəb ola bilər. Yəni sadə vətəndaşların anladığı bir dildə qanunlara dəyişiklik edərək qaydaların tətbiq edilməsinə ehtiyac var. Düşünürəm ki, bu heç də pis olmaz. Küçə ticarətinin sivil qaydalar çərçivəsində yenidən canlanması həm iş yerləri yarada, həm də dövlət büdcəsinə kifayət qədər xeyir verə bilər. Bundan əlavə qiymətlərə də təsir göstərə bilər. Çünki yüksək ticarətlə məşğul olan insanların obyektləri saxlamaqla bağlı xərcləri olmadığına görə daha ucuz qiymətə vətəndaşa məhsul təqdim edə bilirlər. Yəni hərtərəfli həm vətəndaş üçün, həm dövlət üçün kifayət qədər uğurlu formada bunu həyata keçirmək mümkün olar. Sadəcə olaraq dediyim kimi çox aydın şəkildə bunun qaydaları və tənzimləyici qanunları olmalıdır ki, heç bir dövlət orqanı bundan sui-istifadə edib rüşvət mənbəyinə çevirməsin".

Maraqlıdır, əksəriyyət ölkələrdə bir mədəniyyət hesab edilən küçə ticarəti doğrudanmı paytaxtın görünüşünü pozur?

Sosioloq Əhməd Qəşəmoğlu küçə ticarətini daha mədəni şəkildə təşkil edilməsinə böyük ehtiyac olduğunu dedi: "Küçə ticarəti ümumiyyətlə əhali üçün əlverişlidir. Amma onu yüksək səviyyədə təşkil etmək lazımdır. Yəni Türkiyədə də, İranda da, Hindistanda da və digər Şərq ölkələrinin əksəriyyətində küçə ticarəti geniş yayılmış bir formadır. Bizdə də bir ara bunun çox iyrənc forması yayılmışdı. Metronun qabağında qəzeti yerə sərib üstünə göyərti yığırdılar. Yəni birbaşa xəstəlik mənbəyi idi. Küçə ticarətinin fəlsəfəsini, sosioloji tərəfini fikirləşmək lazımdır ki, niyə küçə ticarətinə camaatın ehtiyacı var. Çünki insanlar yolüstü və ucuz alır".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 37 (6651) 18 fevral 2017*




## Amerikalı alimlərdən yeni kəşf - əldə hazırlanmış mini beyinlər

Amerikalı alimlər uzun müddətdir üzərində işlədikləri bir layihəni yekunlaşdırıblar. Bu, mini insan beyinlərinin hazırlanmasıdır. Bu kəşf yeni dərmanların təcrübəsində və beyinlə bağlı xəstəliklərdə ümid olacaq. Amerikanın inkişaf etmiş təhsil qurumlarından olan Cons Hopkins Universitetində həyata keçirilən araşdırma hazırda elm dünyasının gündəmini təşkil edir. Universitetin "Bloomberg School of Public Health" departamenti işçilərinin imzasını daşıyan araşdırma nəticəsində mini insan beyinləri yaradılıb. 350 mikrometr həcmində olan mini beyinlərin hazırlanmasında təbii hüceyrələrdən də istifadə olunub. Araşdırmanın lideri olan Tomas Hartunqun dediyinə görə, mini beyinlər çox qısa zamanda yeni dərmanların təcrübə edilməsində açar rolunu oynayacaq. Belə ki, heyvanlar üzərində təcrübədən keçirilən hər 100 yeni dərmandan 95-i ekspertlər tərəfindən razılıq alsa da, sonradan onların insanlara uyğun olmadığı üzə çıxır. Amma yeni mini beyinlər sayəsində alzheimer və parkinson xəstəliklərinin müalicəsi də yaxından araşdırılacaq.

## Poçtalyon vəhşi hindquşu sürüsünün əhatəsində qaldı

Amerikanın Nyu Cersi ştatındakı Hilsdeyl şəhərində poçtalyona vəhşi hindquşu sürüsü hücum edib. Lenta.ru saytının xəbərinə görə poçt idarəsinin rəhbəri əməkdaşlarından birinin sürünün hücumuna məruz qaldığını və onların əhatəsindən qurtula bilmədiyini öyrənib, yerli polis idarəsinə müraciət edib. Hadisə yerinə gələn polislər vəhşi sürünü dağıdıblar. Poçtalyon bu barədə yerli media orqanlarına hər hansı xəbər verməyib. Amma o, təxminən yarım saat boyunca sürünün əhatəsində olub və psixoloji sarsıntı keçirib.



Maraqlıdır ki, 19-cu əsrin ortalarından etibarən Nyu Cersi ərazisindən vəhşi hindquşuları yox olmuşdu. Yerli bioloqların onların sözügedən ərazidə bərpası üçün 1977-ci ildən əməliyyata başladılar.

## Kitabı küçədə qoyduğu üçün 68 avro cərimələndi

Parisdə bir qadın kitabını küçədə qoyub getdiyi üçün onu 68 avro məbləğində cərimələyiblər. Qadın daha sonra bu haqda sosial şəbəkələrdə məlumat verdiyi üçün pul cəzasını ləğv ediblər. Lenta.ru saytı xəbər verir ki, Qvenel adlı qadın kitab mağazasından oxumaq üçün aldığı kitabı geri qaytarıb. Amma bu zaman oxunmuş kitablar üçün nəzərdə tutulan rəfi görmədiyi üçün kitabı kənar bir yerə qoyub. Bundan öncə qadın oxuduğu bir sıra kitabları sonradan mağazaya qaytarırdı. Amma bu dəfə kitabı yerə qoyduğu üçün polis onu saxlayıb. Fransız qadına "zibili" ictimai yerdə qoyub getdiyi üçün cərimə yazıblar. Xəbərdə qeyd olunur ki, Parisdə səkilərə siqaret kötüyü atanlar da analoji şəkildə cəzalandırılır. Radiostansiyanın xəbərinə görə, Qvinel baş vermiş insidentlə bağlı sosial şəbəkədə yazıb. Hadisəyə media da reaksiya verəndən sonra yerli qurumlar işə qarışıblar və qadının cəriməsi ləğv olunub. Cərimə "yanlışlıq" olaraq qeydiyyata düşüb. Paytaxtın Tvitter səhifəsində isə hadisə ilə bağlı aşağıdakıları yazıblar: "Bu, yanlışlıqdır. Paris kitabları və kitabı paylaşanları sevir. Biz cəriməni ləğv edəcəyik".




## Oğluna qız paltarı geyindirir, qızına oğlan oyuncağı alır

Avstraliya sakini öz oğluna "Disney" multfilmindəki şahzadə kostyumu geyinməyə icazə verib. 7 yaşlı oğlan "Soyuq ürək" animasiya filmindəki Elza obrazını canlandırmaq üçün ona aid kostyumu geyinmək istəyib. Cənubi Avstraliyada ştatındakı ibtidai məktəblərdən birində dərs deyən Kler Kryu adlı ana üç uşağını gender prinsipi olmadan tərbiyə edir. O, heç dərs dediyi məktəbdə də qız-oğlan şagirdlər arasında ayrı-seçkilik etməsinin tərəfdarı deyil. Kryu 9 yaşlı qızına da oğlan oyuncaqları alır. Bununla yanaşı, o, evə Barbi gəlincikləri gətirməməyə çalışır: "Bəzən bəzi şeylərə razılaşmaq lazım gəlir, özünüzü komfortda hiss etməsəniz də".




**QOÇ** - Saat 12-yə qədər uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Sonrakı müddət isə bu baxımdan səmərəli deyil. Evdə təmir aparmaq üçün bu təqvimin böyük əhəmiyyəti var.

**BUĞA** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.

**XƏRÇƏNG** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**ŞİR** - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.

**QIZ** - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə isə tam ümidlə baxın.

**TƏRƏZİ** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki ayın ikinci yarısında bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**ƏQRƏB** - Müqəddəs ziyarətgahlara getmək üçün günün ikinci yarısı münasib vaxtdır. Amma fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Çünki Ay bürcünüzdə qərar tutub.

**OXATAN** - Ayın ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə müəyyən qədər artım da mümkündür.

**OĞLAQ** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nahardan sonra qazanmaq ehtimalınız var.

**SUTÖKƏN** - Bürcünüzün ən uğurlu günlərindən birini yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın və köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 72 yaşında cinsiyyətini dəyişdi



Pekin sakini 72 yaşında cinsiyyətini dəyişdirmək qərarı verib. Bu barədə lenta.ru saytı "China Daily"ə istinadən xəbər yayıb. Əməliyyat 15 fevralda Quandun bölgəsində baş tutub və bir neçə saat davam edib. Sin Yue adlı kişi qadına çevrilib. Xəbərdə qeyd olunur ki, cərrahiyyə əməliyyatından öncə Yue bir çox tibb testlərindən keçib və mindən artıq suala cavab verib. Çinli kişi 1970-ci ildən 2000-ci ilə qədər evli olub və bir qızı var. Təqaüdçünün keçmiş həyat yoldaşı Len Juy onun əməliyyat qərarını tam dəstəkləyib və onunla birlikdə xəstəxanada olub.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100